RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 37 (9204) 18 FEVRAL 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycanın beynəlxalq mövqeyi möhkəmlənir

**◆ Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfəri**

## Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 59-cu Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasında səfərdədir.

→ 2

## Ölkəmiz yəhudi icmasına daim dəstək göstərir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Münhendə Avropa Ravvinləri Konfransının prezidenti Pinhas Qoldşmit ilə görüşüb.

→ 2

## Azərbaycan Avropanın enerji təhlükəsizliyinə yüksək töhfə verir




**Fevralın 17-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Boru arzuları: Gələcəyə uyğun enerji təhlükəsizliyi" mövzusunda "dəyirmi masa" keçirilib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfədən danışan dövlətimizin başçısı bildirdi ki, ötən il Azərbaycanın qaz təchizatının artırılması qısamüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə verilən töhfə idi. Orta və uzunmüddətli perspektivdəki hədəf isə Azərbaycan tərəfindən irəli sürülən "Cənub qaz dəhlizi"-nin genişləndirilməsidir. Prezident İlham Əliyev qeyd etdi ki, 2027-ci ilədək TAP-la qaz nəqlinin indiki 11 milyard kubmetrdən 20 milyard kubmetrə, TANAP-la isə 16 milyard kubmetrdən 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur.

Ötən il Bakıda Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin iştirakı ilə Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalandığını xatırladan dövlətimizin başçısı vurğuladı ki, enerji sahəsində Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı bu sənədə uyğun olaraq bundan sonra da genişlənəcək.

Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıqda bərpaolunan enerjinin xüsusi rolunun olduğunu deyən Prezident İlham Əliyev ölkəmizin son dövrlər bu sahədə bir sıra vacib addımlar atdığını diqqətə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanda bu istiqamətdə artıq bir sıra layihələr həyata keçirilir, həmçinin 25 qiqavatadək enerji istehsalı ilə bağlı müxtəlif sənədlər imzalanıb. Bu isə Azərbaycanın istehsal etdiyi "yaşıl enerji"nin daxili istehlakla yanaşı, Avropaya ixrac edilməsinə də imkan verəcək ki, bu da orta və uzunmüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə töhfə olacaq. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan bundan sonra da Avropanın enerji təhlükəsizliyində vacib rol oynamaqda davam edəcək.

Tədbirdə digər çıxış edənlər Azərbaycanın ötən dövrdə, xüsusilə keçən il Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni xüsusi vurğuladılar, Azərbaycanla bu sahədə əməkdaşlığı yüksək qiymətləndirdilər və onun davamlı olacağına əminliklərini bildirdilər.

## Dövlətimiz Brüssel sülh prosesini dəstəkləyir



Fevralın 17-də Münhendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə görüşü olub.

→ 2

## Prezident İlham Əliyevin Münhendə İsrailin müdafiə naziri ilə görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 17-də Münhendə İsrail Dövlətinin müdafiə naziri Yoav Qallant ilə görüşü olub.

→ 2

**◆ Milli Məclisin iclasında**

## Media haqqında qanunvericilik təkmilləşdirilir

**Fevralın 17-də Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. İclasda əvvəlcə spiker Sahibə Qafarovanın təklifi ilə Türkiyədə təbii fəlakət səbəbindən dünyasını dəyişmiş insanların xatirəsi birdəqiqəlik sükutla yad edilib, onlara Allahdan rəhmət dilənib, həlak olanların ailələrinə və yaxınlarına, qardaş türk xalqına dərin hüznlə başsağlığı verilib, zəlzələ nəticəsində xəsarət almış insanlara şəfa arzulanıb.**



Sahibə Qafarova diqqətə çatdırıb ki, Türkiyədə baş vermiş dəhşətli zəlzələni xalqımız öz faciəsi kimi qəbul edir və fəlakətin nəticələrinin aradan qaldırılmasına kömək göstərmək üçün bütün imkanlarını səfərbər edib. Bu günlərdə biz iki xalq arasında qardaşlıq münasibətlərinin yeni nümunələrini müşahidə etdik. Həm dövlətlərarası, həm dövlət başçıları, həm də insanlar səviyyəsində özünü göstərən doğmalıq və könül birliyi Azərbaycanla Türkiyənin "bir millət, iki dövlət" olması həqiqətini bir daha təsdiqlədi.

→ 3

## Qardaş ölkəyə yardımlarımız Türkiyə mediasının diqqət mərkəzindədir

**Türkiyə mediası Azərbaycan Prezidentinin və xalqının qardaş ölkədə təbii fəlakət baş verən bölgələrə yardımlarına, göstərdiyi maddi-mənəvi dəstəyə dair informasiyalara geniş yer ayırmaqda davam edir.**

AZƏRTAC xəbər verir ki, "Anadolu" Agentliyində dərc olunan "Əminə Ərdoğandan Azərbaycana, BƏƏ və Qətərə təşəkkürlər" sərlövhəli məqalədə Prezident Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğanın zəlzələdən əziyyət çəkən bölgələrə göstərdikləri dəstəyə görə birinci xanım Mehriban Əliyevaya, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin anası Şeyxə Fatimə bint Mübarəkə və Qətər əmirinin anası Şeyxə Moza bint Naserə təşəkkür etdiyi bildirilib. Qeyd edilib ki, digər paylaşımında Əminə Ərdoğan göstərdiyi dəstəyə görə Azərbaycana və birinci xanım Mehriban Əliyevaya təşəkkürünü bildirərək yazıb: "Dərdiniz dərdimizdir" deyən azərbaycanlı qardaşlarımızı unutmayacağıq. İlk gündən humanitar yardım təyyarələri, xüsusilə də axtarış-xilasetmə qrupları ilə bizimlə olan Azərbaycana və dəyərli dostum Mehriban xanım Əliyevaya dəstəyə görə təşəkkürümü bildirirəm".

→ 4

## Türkiyəyə modul tipli daha 22 ev yola salınıb



Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədilə Azərbaycanın şəhər və rayon icra hakimiyyətləri tərəfindən hər gün qardaş ölkəyə humanitar yardımlar göndərilir. Hazırda fəlakət zonasında evsiz-eşiksiz qalmış insanların isti sığınacaqlarla təmin edilməsi ən vacib məsələlərdən biridir.

AZƏRTAC xəbər verir ki, bu məqsədlə Azərbaycanın şəhər və rayon icra hakimiyyətləri tərəfindən Bakı şəhərində sifariş olunmuş modul tipli 90-dan çox müasir ev hazırlanaraq mərhələli şəkildə Türkiyəyə göndərilir.

Qısa müddətdə və yüksək keyfiyyətlə hazırlanmış 1 və 2 otaqlı belə evlərdə 10-12 nəfərin yaşaması üçün zəruri şərait yaradılıb.

Fevralın 13-dən etibarən modul tipli 26 ev aidiyyəti şəhər və rayon icra hakimiyyətləri tərəfindən yola salınıb. Şirvan şəhər, Abşeron, Ağstafa, İmişli, Zaqatala, Goranboy, Cəlilabad və Tərtər rayon icra hakimiyyətlərinin sifarişi ilə hazırlanmış daha 22 ev isə bu gün qardaş ölkəyə göndərilib.

→ 4

## FHN-in xilasediciləri Türkiyədə dağıntılar altından 53 nəfəri sağ, 741 nəfərin isə cəsədini çıxarıblar



→ 4

## Könüllülərimiz zəlzələ bölgəsində fəaliyyətlərini davam etdirirlər



Ötən həftədən etibarən Azərbaycan gəncləri də təbii fəlakətin baş verdiyi ərazilərə yollanaraq, zərərçəkənlərə müxtəlif xidmətlərin göstərilməsi məqsədilə könüllü şəkildə qardaşlıq borcunu yerinə yetirirlər.

Ötən gün ərzində könüllülərimiz ənənəvi olaraq müxtəlif məntəqələrdə qida, geyim, dərman və digər yardımların boşaldılması, çeşidlənməsi və paylanmasını həyata keçiriblər.

Eyni zamanda azərbaycanlı gənclər zərərçəkmiş şəxslərə səyyar şəkildə isti içkilər təqdim edib, müxtəlif məhəllələrdə səyyar yardım paylanılmasında, eləcə də iki kəndə səyyar yardım daşınmasında fəal iştirak ediblər.

→ 4

## Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya səfəri

# Azərbaycanın beynəlxalq mövqeyi möhkəmlənir

## Azərbaycan Avropa İttifaqının etibarlı tərəfdaşıdır



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, fevralın 17-də dövlətimizin başçısı Münhendə Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms ilə görüşüb.

Prezident İlham Əliyev Almaniya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün yaxşı şəraitin yaradıldığını, alman şirkətləri ilə uğurlu təcrübəmizin olduğunu, ölkələrimiz arasında sənaye, ticarət və iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlıq əlaqələrinin mövcudluğunu qeyd etdi.

Dövlətimizin başçısı ötən il Azərbaycanla Almaniya arasında ticarət dövriyyəsinin genişlənməsini yüksək qiymətləndirdi, qarşılıqlı ixracın artmasını müsbət amil kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu və Avropa İttifaqı ilə ölkəmiz arasında sıx münasibətlərin mövcudluğunu bildirdi.

Görüşə görə təşəkkürünü bildirən Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms dövlətimizin başçısı ilə sonuncu görüşünü məmnunluqla xatırladı. Bildirdi ki, COVID-19 pandemiyasının törətdiyi fəsadlara baxmayaraq, Almaniya ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında və ticarət dövriyyəsində əsaslı artım var.

Prezident İlham Əliyev Azərbaycanda müxtəlif istiqamətlərdə, o cümlədən vergi və gömrük sahələrində həyata keçirilən islahatlar barədə məlumat verdi, ölkəmizin xarici sərmayədarlar üçün cəlbedici investisiya məkanı olduğunu vurğuladı. Dövlətimizin başçısı eyni zamanda ölkəmizdə azad ticarət zonasının yaradılması istiqamətində atılan addımlar, Azərbaycanın logistika və nəqliyyat imkanlarının artması barədə məlumat verdi. Bu xüsusda Almaniya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün geniş imkanların mövcud olduğunu diqqətə çatdırdı, Almaniyanın Şərqi Biznes Assosiasiyasının tərkibinə daxil olan şirkətləri tanışlıq məqsədilə ölkəmizə səfərə dəvət etdi.

Azərbaycan Prezidenti işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin həyata keçirilməsində alman şirkətlərinin təmsilçiliyi üçün geniş imkanların olduğunu bildirdi.

Dövlətimizin başçısı eyni zamanda "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində Azərbaycan iqtisadiyyatının inkişafı üçün strateji prioritetlərin müəyyənləşdirildiyini qeyd edərək, bu sahədə ölkələrimiz arasında, o cümlədən alman şirkətləri ilə əməkdaşlıq üçün geniş imkanların olduğunu dedi.

Prezident İlham Əliyev həmçinin Azərbaycanda bərpaolunan enerjinin inkişafı məqsədilə həyata keçirilən layihələri, Avropa İttifaqı ilə ölkəmiz arasında enerji sahəsində tərəfdaşlığı qeyd etdi, Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayenin iştirakı ilə ötən il Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış strateji sənədin əhəmiyyətini bildirdi. Dövlətimizin başçısı ölkəmizin həm Xəzər dənizinin Azərbaycan sektorunda, həm də quruda böyük həcmdə bərpaolunan enerji potensialına malik olduğunu qeyd etdi, Avropa İttifaqı ilə tərəfdaşlıq çərçivəsində bu layihənin inkişafı istiqamətində tədbirlərin həyata keçirildiyini dedi və alman şirkətləri ilə də bu sahədə əməkdaşlıq üçün böyük imkanların olduğunu vurğuladı. Prezident İlham Əliyev bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış dördtərəfli memorandumun əhəmiyyətini qeyd etdi.

Ətraflı məlumata görə minnətdarlığını bildirən Mixael Harms Almaniya şirkətlərinin Azərbaycanda məmnuniyyətlə fəaliyyət göstərdiyini vurğuladı, Azərbaycanın alman şirkətlərinin birbaşa investisiyaları üçün cəlbedici məkan olduğunu, ölkəmizin nəqliyyat-logistika imkanlarının daha da genişlənməsinin alman şirkətləri üçün əlavə cəlbedicilik yaratdığını dedi. O, alman şirkətləri ilə birlikdə məmnuniyyətlə Azərbaycana səfər etmək niyyətində olduğunu diqqətə çatdırdı.

Mixael Harms Almaniya şirkətlərinin bərpaolunan enerji sahəsinə xüsusi maraq göstərdiyini vurğuladı, bu sahədə də əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirdi.

## Dövlətimiz Brüssel sülh prosesini dəstəkləyir



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqlar və Brüssel sülh prosesi ətrafında müzakirələr aparıldı.

Prezident İlham Əliyev Azərbaycanın Brüssel sülh prosesini dəstəklədiyini qeyd etdi.

Şarl Mişel Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında, sülh müqaviləsi üzrə danışıqlarda, Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin olunmasında səylərini bundan sonra da davam etdirəcəyini bildirdi.

Söhbət zamanı həmçinin Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyəti barədə fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Münhendə İsrailin müdafiə naziri ilə görüşü olub

Əvvəli 1-ci səh.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Yoav Qallantı İsrailin müdafiə naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, onunla Azərbaycanın müdafiə naziri arasında təmasların və telefon danışıqlarının olduğunu məmnunluqla vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla İsrail arasında münasibətlərin dostluq və tərəfdaşlıq xarakteri daşıdığını, müxtəlif sahələrdə, o cümlədən müdafiə və hərbi-texniki sahədə əməkdaşlığın inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın İsraildə səfirliyinin tezliklə fəaliyyətə başlamasının əlaqələrimizin inkişafına daha böyük töhfə verəcəyinə əminliyini ifadə etdi.

Yoav Qallant İsrail Dövlətinin rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi və onun da salamlarını İsrail Dövlətinin rəhbərliyinə çatdırmağı xahiş etdi.

Nazir Yoav Qallant Azərbaycanla İsrail arasındakı əlaqələrin inkişafından məmnunluğunu bildirdi, vaxtilə Azərbaycana səfər etməsini xatırlatdı, Quba şəhərində yəhudi icmasının yaşaması üçün yaradılmış şəraitin onda böyük təəssürat yaratdığını dedi. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Ölkəmiz yəhudi icmasına daim dəstək göstərir



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, görüşdə dövlətimizin başçısı tarixən yəhudi icmasının Azərbaycanda dostluq, mehribanlıq və qarşılıqlı anlaşma mühitində yaşadığını, dini ibadətlərini sərbəst yerinə yetirdiyini, sinaqoqların fəaliyyəti üçün şəraitin yaradıldığını qeyd etdi.

Azərbaycanın Quba rayonunda yaşayan yəhudi icması haqqında danışan Prezident İlham Əliyev dövlətimiz tərəfindən yəhudi icmasına daim dəstək göstərildiyini, onların yaşayış şəraitinin yaxşılaşdırılması üçün mütəmadi olaraq tədbirlərin görüldüyünü vurğuladı. Dövlətimizin başçısı bunun minilliklər boyu Azərbaycan xalqının həyat tərzi olduğunu diqqətə çatdırdı.

Avropa Ravvinləri Konfransının prezidenti Pinhas Qoldşmit 1997-ci ildə Azərbaycana səfərini və Ulu Öndər Heydər Əliyev ilə görüşünü məmnunluqla xatırlatdı, Ümummilli Liderlə görüşün onda zəngin təəssürat yaratdığını qeyd etdi. O, Azərbaycanın yəhudi icmasının fəaliyyətini möhkəm təməllər üzərində davam etdirdiyini vurğuladı, onlara yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Pinhas Qoldşmit Azərbaycanda müxtəlif dinlərin nümayəndələri, o cümlədən yəhudi icması üçün yaradılmış şəraitin digər ölkələrə nümunə olduğunu dedi. O, Quba rayonuna səfər etdiyini və burada yəhudi icmasının yaşayış şəraiti ilə tanış olduğunu vurğuladı, orada 13 sinaqoqun fəaliyyət göstərməsinin onda dərin təəssürat yaratdığını dedi.

Avropa Ravvinləri Konfransının prezidenti Azərbaycan ilə İsrail arasında əlaqələrin hərtərəfli inkişafının məmnunluq doğurduğunu, dünyanın müxtəlif ölkələrində yaşayan yəhudi icmalarının da bu əlaqələrin inkişafına töhfə verdiyini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycan ilə İsrail arasında tərəfdaşlıq və dostluq əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın İsraildə səfirliyinin açılmasının bu əlaqələrin inkişafına böyük töhfə verəcəyinə əminliyini ifadə etdi.

Görüşdə Avropa yəhudi icmasının nümayəndələrinin Azərbaycana səfər etmək niyyətində olduqları vurğulandı.

# İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Müşahidə Şurasının iclası keçirilib



Fevralın 17-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin 2022-ci il iyulun 22-də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və 2022-ci il 16 noyabr tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamlarından Nazirlər Kabinetinə həvalə olunan tapşırıqların icrası, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin fəaliyyət planının əsas istiqamətləri və nəticələri, təşkilati-struktur məsələləri geniş müzakirə olunub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının təqdimatı dinlənilib.

İclasın yekununda "Strategiyada və Böyük qayıdışa dair I Dövlət Proqramında" nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi ilə bağlı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə müvafiq tapşırıqlar verilib.

# Koordinasiya Şurasının növbəti iclası olub



Azərbaycan Respublikasının pulların leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin Avropa Şurasının ekspertlər Komitəsi (MONEYVAL) tərəfindən aparılacaq 5-ci raund qiymətləndirilməsinə hazırlığın təmin edilməsi və digər məsələlərin müzakirəsi məqsədilə Nazirlər Kabinetinin qərarı ilə yaradılmış Koordinasiya Şurasının növbəti iclası keçirilib.

Maliyyə Monitorinqi Xidmətindən AZƏRTAC-a bildirilib ki, Baş nazirin müavini Əli Əhmədov ötən dövr ərzində pulların leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən tədbirlər - milli risk qiymətləndirilməsinin aparılması, müvafiq sahədə yeni qanunların qəbulu, habelə MONEYVAL Komitəsinin 5-ci raund qiymətləndirmə prosesinə son hazırlıq mərhələsində həlli zəruri olan tədbirlər barədə məlumat verib.

Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri Zaur Fətizadə ötən dövrdə görülmüş işlərdən danışıb. 2023-cü ilin 1-15 mart tarixlərində MONEYVAL qiymətləndirici missiyasının ölkəmizə səfəri ilə bağlı təşkilati işlərin vəziyyəti, keçirilmiş təlimlər və aparılmış sınaq müsahibələr barədə iştirakçılara məlumat verib, həmçinin qiymətləndirmə üçün tələb olunan məlumatların və sənədlərin MONEYVAL qiymətləndirici missiyasına tamlıqla təmin edilməsinin vacibliyini iclas iştirakçılarının diqqətinə çatdırıb.

İclasda həmçinin Koordinasiya Şurasının 2022-ci il iyunun 23-də təsdiq edilmiş tədbirlər planının icra vəziyyəti barədə iştirakçılara məlumat verilib, şura üzvləri tərəfindən gündəlikdə duran və digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Azad edilmiş ərazilərdə bölmələrin xidməti-döyüş fəaliyyəti yoxlanılıb

**Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.**



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti azad edilən ərazilərdə dislokasiya olunan hərbi hissələrin xidməti-döyüş fəaliyyətini yoxlayıb.

Müdafiə naziri döyüş mövqelərinə gələrək əməliyyat şəraiti ilə bağlı məruzələri dinləyib. Qeyd olunub ki, müasir texniki avadanlıqlarla təchiz olunmuş mövqelərdə qarşı tərəfin bütün fəaliyyətləri fasiləsiz müşahidə edilir.

Şəxsi heyətlə görüşən nazir onların döyüş ruhu və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib. Döyüş növbətçiliyinin daha keyfiyyətli təşkili və aparılması, şəxsi heyətin sayıqlığının artırılması ilə bağlı komandanlıq qarşısında konkret tapşırıqlar qoyub.

Sonra general-polkovnik Zakir Həsənov şəxsi heyətlə söhbət edib, onların qayğıları ilə maraqlanıb.

Müdafiə Nazirliyinin rəhbər heyəti daha sonra növbəti hərbi hissəyə gedərək burada yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, Ali Baş Komandanın diqqət və qayğısı nəticəsində hərbi hissələrin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması üçün burada zəruri infrastruktur yaradılıb.

Hərbi hissədə yaradılan şəraitlə tanış olduqdan sonra general-polkovnik Zakir Həsənov şəxsi heyətlə birgə nahar edib.

Sonda müdafiə naziri Ali Baş Komandanın tapşırığına əsasən hərbi qulluqçuların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, eləcə də sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində aidiyyəti şəxslərə müvafiq göstərişlər verib.

### Milli Məclisin iclasında

# Media haqqında qanunvericilik təkmilləşdirilir

*Əvvəli 1-ci səh.*

Bunu da əminliklə söyləmək olar ki, qüdrətli bir dövlət kimi Türkiyə fəlakətin vurduğu yaraları tezliklə sağaldacaq və bu sınaqdan da çıxacaq.

Sonra Sahibə Qafarova bildirib ki, Milli Məclis Sədrinin rəhbərliyi ilə nümayəndə heyətləri fevralın 6-dan 8-dək Misir Ərəb Respublikasında, fevralın 9-dan 11-dək Cənubi Afrika Respublikasında və fevralın 13-14-də Rusiyada rəsmi səfərlərdə olub. Spiker bu səfərlər barədə məlumat verərək qeyd edib ki, Misirdə nümayəndə heyətimiz ölkəmizin səfirliyini ziyarət edib, səfirliyin inzibati binasının foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, Ümummilli Liderimizin əziz xatirəsini ehtiramla yad edib.

Misir Parlamenti Senatının Sədri Abdel Vahab Abdel Razeq, Nümayəndələr Palatasının Sədri Hanafi Gibali, Baş nazir Mustafa Madbuli ilə görüşlərdə ölkələrimiz arasında münasibətlərin mövcud inkişaf səviyyəsindən məmnunluq ifadə edildi.

Dövlət başçılarının qarşılıqlı səfər və görüşlərinin, imzalanan sənədlərin xüsusi önəm daşıdığı qeyd olundu. Azərbaycan Respublikasının Milli Məclisi ilə Misir Ərəb Respublikasının Senatı arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalandı.

Spiker diqqətə çatdırıb ki, səfər çərçivəsində Ərəb Dövlətləri Liqasının qanunvericilik orqanı olan Ərəb Parlamentinin Qahirədə yerləşən mənzil-qərargahında bu parlament qurumunun sədri Adelbin Abdul Rahman Əl-Asumi ilə də görüş keçirildi. Ərəb Parlamentinin yanvarın 22-də keçirilmiş plenar iclasında Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə müşahidəçi statusu verilməsi barədə qərar qəbul edilməsi yüksək qiymətləndirildi. Bununla da Parlament Şəbəkəsinin müşahidəçi statusu əldə etdiyi beynəlxalq parlament təşkilatlarının sayı üçə çatdı. Görüşün sonunda Ərəb Parlamenti ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalandı.

Milli Məclisin Sədri bildirib ki, Cənubi Afrika Respublikasına rəsmi səfərdə iştirak etdikləri ilk tədbir bu ölkənin siyasi həyatında mühüm hadisə sayılan Prezident Siril Ramafosanın xalqa müraciət etməsi mərasimi oldu.

CAR Milli Assambleyasının Sədri Nosivive Mapisa Nqakula ilə görüşdə parlamentlər arasında əlaqələrin inkişafına qarşılıqlı maraq ifadə edildi, dövlətlərarası əlaqələrin inkişafında parlamentlərin rolundan danışıldı.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Rusiya Federasiyasına rəsmi səfər çərçivəsində bu ölkənin Federal Məclisinin Dövlət Dumasının Sədri Vyaçeslav Volodin və Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşlər keçirildi. Görüşlərdə qeyd edildi ki, Azərbaycan-Rusiya münasibətləri bir-birinin maraqları nəzərə alınmaqla qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanır. Sonra parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətindən danışıldı. Belə bir fikir ifadə olundu ki, humanitar sahədə əlaqələr ölkələrimiz arasında əməkdaşlığın mühüm bir istiqamətini təşkil edir. Bu mənada Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolu xüsusilə vurğulandı.

Rusiyada keçirdikləri görüşlərdə həmçinin Laçın yolu ətrafında vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycan, Ermənistan və Rusiya rəhbərləri tərəfindən imzalanmış üçtərəfli razılaşmaların həyata keçirilməsinin vacibliyi vurğulanıb. Səfər çərçivəsində Milli Məclisin Sədri qeyd edib ki, Ermənistan Laçın



yolundan minalar, hərbi sursat, şəxsi heyət və talan edilmiş təbii sərvətlərin daşınması üçün istifadə etmişdir. Orada keçirilən etiraz aksiyası Azərbaycan vətəndaşlarının qanuni hüququdur və onların haqlı tələbləri hökmən yerinə yetirilməlidir. Eyni zamanda o, Avropa İttifaqının Ermənistana göndərilən müşahidə missiyası ilə bağlı bildirib ki, Ermənistan tərəfindən Azərbaycanla sərhəd bölgəsinə müşahidə missiyası adı altında kənar qüvvələrin gətirilməsi və onlardan sui-istifadə edilməsi normallaşma prosesi üçün təhdid törədə bilər və bundan çəkinilməlidir.

Hər üç ölkədə görüşlərdə bu il yanvarın 27-də Azərbaycanın İrandakı Səfirliyinə edilmiş silahlı hücum məsələsinə də toxunulub. Spiker bildirib ki, biz bunu terror aktı kimi qiymətləndiririk və İrana da bu mövqeyimizi açıq ifadə etmişik. Bu hadisənin ədalətli araşdırılmasını və cinayətkarların layiqli cəza almasını tələb edirik.

Sonra cari məsələlər ətrafında müzakirələr aparılıb. Deputatlar Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Misir, CAR və Rusiyaya səfərlərini yüksək qiymətləndiriblər. Bildirilib ki, bu səfərlər Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin xarici siyasətinin parlament diplomatiyası səviyyəsində uğurla həyata keçirildiyinin bariz nümunəsidir.

Çıxışlarda Türkiyədə baş vermiş zəlzələ ilə bağlı Prezident İlham Əliyev başda olmaqla Azərbaycan dövlətinin və xalqının Türkiyənin yanında olduğu bildirilib. Prezidentin tapşırığı ilə ölkəmizdə operativ surətdə təşkil olunan humanitar yardım kampaniyaları, xilasedicilərimizin aparılan əməliyyatlarda yaxından iştirakı təqdirəlayiq hesab olunub. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, fond tərəfindən qardaş ölkəyə göndərilən yardım xüsusi qeyd edilib. Bildirilib ki, Milli Məclis də öz növbəsində fəal şəkildə yardım kampaniyasına qoşularaq Türkiyə xalqına öz dəstəyini nümayiş etdirib.

Deputatlar çıxışlarında bir sıra digər aktual məsələlərlə də bağlı fikirlərini bölüşüblər. Elman Məmmədov çıxış edərək 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində ermənilərin dinc əhaliyə qarşı törətdiyi soyqırımı barədə danışıb. O, 188 nəfər kənd sakininin 66 nəfərinin vəhşicəsinə qətlə yetirildiyini söyləyib. Deputat qeyd edib ki, Qaradağlı kəndində baş vermiş soyqırımına hüquqi-siyasi qiymət verilməlidir.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. İlk olaraq Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə, Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında" Sazişin təsdiq edilməsi barədə və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Serbiya Respublikasının Tikinti, Nəqliyyat və İnfrastruktur Nazirliyi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın (əlavələrlə) I/10-cu qaydasına əsasən sertifikatların (diplomların) tanınması haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə qanun layihələri təsdiq olunub.

Sonra parlamentin spikeri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin 4-cü məsələsindən başlayaraq növbəti 13 məsələ Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. O qeyd edib ki, 12 məsələ, yəni 4-cü məsələdən 15-ci məsələyədək olan qanun layihələri müvafiq Konstitusiya Qanununun tələbinə əsasən, bir oxunuşda qəbul ediləcək. Belə ki, 97 qanunun, qanunlarla təsdiq edilmiş 1 Nizamnamənin və 3 Əsasnamənin "Media haqqında" qanuna uyğunlaşdırılması nəzərdə tutulur.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qanunlara dəyişiklik barədə məlumat verib.

Qeyd olunub ki, bu qanun layihələri 2021-ci il 30 dekabr tarixində qəbul edilmiş "Media haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar hazırlanıb. O, bu qanunla "media", "televiziya və radio" və "proqram" anlayışlarının artıq qüvvədə olduğunu və bununla əlaqədar təqdim olunan layihələrdə adları çəkilən bütün məcəllə və qanunlarda uyğunlaşdırma xarakterli dəyişikliklərin nəzərdə tutulduğunu deyib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

"Media haqqında" qanunun icrası ilə bağlı olan və uyğunlaşdırma xarakteri daşıyan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi də (birinci oxunuş) qəbul edilib.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Bildirilib ki, "Media haqqında" qanunun 4-cü maddəsində medianın inkişafının təşviqi və media subyektlərinin fəaliyyətinin stimullaşdırılması nəzərdə tutulur. Buna uyğun olaraq Vergi Məcəlləsinə dəyişikliklər edilməsi təklif olunur. Layihəyə əsasən media subyektlərinin öz fəaliyyətləri nəticəsində əldə etdikləri gəlirlərin, o cümlədən reklam gəlirlərinin, habelə onlara müvafiq dövlət qurumu tərəfindən verilən maddi yardımların gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən azad edilməsi təklif olunur. Eyni zamanda media subyektləri tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi də əlavə dəyər vergisindən azad edilir. Azadolmalar 2023-cü il yanvarın 1-dən tətbiq olunmaqla 3 il müddətində qüvvədə olacaqdır və audiovizual media subyektlərinə şamil olunmur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev - "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və "İşsizlikdən sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələrini təqdim edib. Bildirib ki, "Sosial sığorta haqqında" qanunun 5 maddəsinə 22, "İşsizlikdən Sığorta haqqında" qanunun 3 maddəsinə 7 dəyişiklik təklif olunur. Dəyişikliklər Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun investisiya fəaliyyətinə hüquqi təminatlar yaratmaq məqsədi ilə hazırlanıb. O qeyd edib ki, investisiya fəaliyyəti nəticəsində sərbəst vəsaitlərin səmərəli idarəetmə yolu ilə dəyərinin qorunub saxlanılmasına, əlavə gəlir mənbəyinin formalaşdırılmasına, məşğulluq, peşə hazırlığı, sosial müdafiə və təminat sahələrində davamlı islahatların aparılmasına dəstək göstərmək imkanı yaranacaq. Təklif edilən dəyişikliyə əsasən, investisiyaya yönəldilən sərbəst vəsait, investisiya gəlirləri və onun istifadə olunmamış qalığı Azərbaycan Respublikasının Mərkəzi Bankında açılmış hesaba toplanacaq və uçotu ayrıca aparılacaq. Yaradılacaq sərbəst vəsait və investisiya gəlirləri sosial ödəmələrə, məşğulluq və sosial müdafiə sahəsində islahatların aparılmasına yönəldiləcək.

Komitə sədri Zahid Oruc, deputatlar Qüdrət Həsənquliyev, Azay Quliyev, Elnur Allahverdiyev, Fazil Mustafa, Aydın Hüseynov, Vüqar Bayramov məsələlər barədə fikirlərini və bəzi qeydlərini açıqlayıblar. Komitə sədri Musa Quliyev qaldırılan məsələlərə aydınlıq gətirib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Bildirib ki, layihə mülki hüququn institutu olaraq borc müqaviləsi və onun tərkib hissəsi olan kredit müqaviləsi üzrə münasibətlərin mülki qanunvericilik çərçivəsində tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi, xüsusilə bu sahədə borcalanların hüquqlarının qorunmasının təmin edilməsi, habelə məcəllənin əqdlərlə və öhdəliklərlə bağlı bəzi normalarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Kredit ittifaqları haqqında", "Tütün və tütün məmulatı haqqında", "Banklar haqqında" və "Bank olmayan kredit təşkilatları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirilib ki, layihə "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinə uyğun olaraq hazırlanıb.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Fövqəladə vəziyyət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, təklif edilən dəyişikliyə əsasən, "Fövqəladə vəziyyət haqqında" qanuna sosial xarakterli fövqəladə mühit rejiminin hüquqi əsaslarını müəyyən edən yeni fəslin əlavə olunması nəzərdə tutulub.

Qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

İclasda "Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), "Torpaq icarəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri də ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrini təqdim edib. Bildirib ki, hər üç qanun layihəsi ölkəmizdə nəqliyyat siyasətinin təkmilləşdirilməsini, habelə tranzitlə keçən beynəlxalq daşımalar zamanı dövlət siyasətinin vahid bir mərkəzdən idarə olunmasını özündə ehtiva edir.

Qanun layihələri ikinci oxunuşda qəbul edilib.

Tahir Mirkişili "Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrindən danışıb. "Avtomobil nəqliyyatı haqqında" qanuna təklif olunan dəyişikliklər iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət etməsinə icazənin verilməsi mexanizminin təkmilləşdirilməsi, o cümlədən ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət edən iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin aidiyyəti dövlət qurumunun avtonəqliyyat vasitələri ilə müşayiət olunmasının təmin edilməsi, habelə onların hərəkət marşrutunun müəyyən olunması mexanizminin tənzimlənməsi məqsədi daşıyır.

Qeyd olunub ki, "Avtomobil nəqliyyatı haqqında" qanunda edilən dəyişikliklərlə bağlı "Dövlət rüsumu haqqında" qanuna təklif edilən dəyişikliklərdə ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkətinə icazənin verilməsi üçün dövlət rüsumunun məbləğinin müəyyən edilməsi nəzərdə tutulub.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İclasda son olaraq Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) müzakirəyə çıxarılıb. Bildirilib ki, qanun layihəsi ölkəmizin Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenası haqqında" 1981-ci il tarixli 155 nömrəli Konvensiyasının 21-ci maddəsinə qoşulması ilə bağlıdır. Dəyişiklik Əmək Məcəlləsinin 220-ci maddəsinə yeni 6-cı hissənin əlavə edilməsini nəzərdə tutur. Əlavəyə əsasən əməyin mühafizəsi tədbirlərinin maliyyələşdirilməsi ilə bağlı işçilər heç bir xərc çəkmirlər.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bir yumruq, bir ürək, bir can



## Hatayda yerləşən Koordinasiya Mərkəzində toplantı keçirilib

### Azərbaycan Fövqəladə Hallar Nazirliyinin qüvvələrinin bölgədə aparacaqları axtarış-xilasetmə əməliyyatları müzakirə olunub




Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə qardaş ölkədə olan Fövqəladə Hallar Nazirliyinin (FHN) çevik xilasetmə qüvvələrinin bir qrupu fevralın 17-də Hatay bölgəsinə göndərilib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu çərçivədə, fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev Hataydakı Fövqəladə hallar üzrə Koordinasiya Mərkəzində Türkiyənin daxili işlər naziri Süleyman Soylunun iştirakı ilə keçirilən toplantıda iştirak edib. Toplantıda zəlzələdən ciddi zərər görən Hatay bölgəsində mövcud vəziyyət, görüləcək işlər, o cümlədən Azərbaycan Fövqəladə Hallar Nazirliyinin xilasetmə qüvvələri tərəfindən bölgədə aparılacaq axtarış-xilasetmə əməliyyatlarının istiqamətləri müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

Bundan başqa, Türkiyə daxili işlər nazirinin müavini, Hatay Fövqəladə hallar üzrə Koordinasiya Mərkəzinin rəhbəri İsmayıl Çataklı ilə keçirilən görüşdə FHN-in qüvvələrinin axtarış-xilasetmə əməliyyatları, eləcə də atılacaq sonrakı addımlar geniş müzakirə edilib.

Türkiyəli rəsmilər göstərilən dəstəyə və yardıma görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təşəkkürlərini bildiriblər.

## FHN-in xilasediciləri Türkiyədə dağıntılar altından 53 nəfəri sağ, 741 nəfərin isə cəsədini çıxarıblar





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Türkiyədə olan Fövqəladə Hallar Nazirliyinin (FHN) çevik xilasetmə qüvvələri qardaş ölkədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirirlər.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, FHN-in xilasediciləri zəlzələdən ciddi zərər görmüş Kahramanmaraş rayonu ərazisində həyata keçirdikləri axtarış-xilasetmə əməliyyatları nəticəsində dağıntılar altından 53 nəfəri sağ, 741 nəfərin isə cəsədini çıxararaq aidiyyəti üzrə təhvil veriblər.

Axtarış-xilasetmə əməliyyatları xüsusi texniki vasitələr, habelə xilasetmə itlərinin tətbiq edilməsi ilə davam etdirilir.

## FHN-in Türkiyəyə göndərdiyi yardımın həcmi və xilasedicilərin sayı açıqlanıb



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən Türkiyəyə göndərilən xilasetmə və tibbi personal, humanitar yardımın siyahısı açıqlanıb.

FHN-dən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycandan Türkiyəyə 760 nəfər xilasetmə və tibbi personal, 8 xilasetmə iti, 2 mobil səhra hospitalı (7 konteynerlə), 3 xüsusi təyinatlı xilasedici nəqliyyat vasitəsi, 2630 çadır (müxtəlif ölçülü), 707 qızdırıcı, 540 çarpayı, 5 böyük gücə malik generator, 724 ədyal və 724 ədyal üzü, 8000 geyim dəsti, 20000 corab (cüt), 650 masa, 2000 oturacaq, 7000 iplik dəsmal və digər ləvazimatlar göndərilib.

Kahramanmaraş rayonunda fəaliyyət göstərən mobil səhra hospitalında bu günədək 729 nəfərə yüksək səviyyəli tibbi xidmət göstərilib. FHN-in Kahramanmaraşdakı qüvvələrindən 110 nəfərdən çox şəxs axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə Hataya göndərilib.

## Könüllülərimiz zəlzələ bölgəsində fəaliyyətlərini davam etdirirlər

Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş dağıdıcı zəlzələnin ilk saatlarından Azərbaycan dövləti və xalqı qardaş ölkənin yanında olub, təbii fəlakətin fəsadlarının aradan qaldırılmasına dəstək nümayiş etdirir. Ötən həftədən etibarən Azərbaycan gəncləri də təbii fəlakətin baş verdiyi ərazilərə yollanaraq, zərərçəkənlərə müxtəlif xidmətlərin göstərilməsi məqsədilə könüllü şəkildə qardaşlıq borcunu yerinə yetirirlər.

Azərbaycan Gənclər Fondundan AZƏRTAC-a bildirilib ki, ötən gün ərzində könüllülərimiz ənənəvi olaraq müxtəlif məntəqələrdə qida, geyim, dərman və digər yardımların boşaldılması, çeşidlənməsi və paylanmasını həyata keçiriblər. Eyni zamanda azərbaycanlı gənclər zərərçəkmiş şəxslərə səyyar şəkildə isti içkilər təqdim edib, müxtəlif məhəllələrdə səyyar yardım paylanılmasında, eləcədə iki kəndə səyyar yardım daşınmasında fəal iştirak ediblər.

Bununla yanaşı, zəlzələdən zərərçəkmiş uşaqların asudə vaxtının səmərəli təşkili məqsədi ilə uşaqlar üçün nəzərdə tutulmuş iki çadırda könüllülərimiz xidmət göstərib. Əlavə olaraq, Kahramanmaraşın Sütçü İmam Universitetinin ərazisində yaradılmış çadır şəhərcikdə də yerli əhaliyə çay paylanılıb və iki çadırdan ibarət uşaq bağçası qurularaq istifadəyə verilib.

Qeyd edək ki, Ədalət və İnkişaf Partiyasının (AK Parti) Kayseridən olan deputatı İsmail Emrah Karayelin başçılıq etdiyi nümayəndə heyəti könüllülərimizin Kahramanmaraşdakı düşərgəsinə baş çəkib, Azərbaycan könüllülərinə təşəkkürünü bildirib.

## İndiyədək 565 Azərbaycan vətəndaşı və onların ailə üzvləri zəlzələ bölgəsindən təxliyə olunub

Türkiyədə baş vermiş zəlzələdən zərər çəkmiş Azərbaycan Respublikası vətəndaşlarının müəyyən edilməsi və onlara köməklik göstərilməsi istiqamətində işlər davam edir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, zəlzələ baş vermiş gündən etibarən 565 nəfər Azərbaycan Respublikası vətəndaşı və onların yaxın ailə üzvləri olan xarici ölkə vətəndaşları zəlzələ bölgəsindən təxliyə olunub. Hazırda təxliyə prosesi davam edir.

Türkiyə Respublikasından təxliyəsi həyata keçirilən vətəndaşlarımız və onların ailə üzvlərinə lazımi tibbi, humanitar və psixoloji yardımın göstərilməsi, zərurət yarandıqda həmin şəxslərin müvəqqəti sığınacaq mərkəzlərinə yerləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarına müvafiq göstəriş verilib.

Qeyd edilib ki, "qaynar xətt" nömrələrinə daxil olmuş minlərlə müraciət araşdırılıb, haqqında xəbər alına bilməyən Azərbaycan vətəndaşlarının siyahısı hazırlanaraq, onlar haqqında məlumat əldə etmək məqsədilə, Türkiyənin aidiyyəti qurumları ilə birgə müvafiq iş aparılıb. Nəticədə bir çox Azərbaycan vətəndaşlarının olduğu yer müəyyən edilib və onlarla əlaqə saxlanılıb. Hazırda iki Azərbaycan vətəndaşı haqqında məlumat yoxdur, onların axtarışları davam etdirilir.

Aparılmış axtarış-xilasetmə tədbirləri nəticəsində bu günə qədər 10 Azərbaycan vətəndaşının zəlzələ nəticəsində həlak olduğu müəyyən edilib. Onlardan biri Türkiyədə dəfn olunub, 9 nəfərin cənazəsi isə bütün zəruri prosedurlar yerinə yetirilməklə, Türkiyədə olan yaxınlarının müşayiəti ilə Azərbaycana yola salınıb.

"Bu dəhşətli zəlzələdə həlak olan həmvətənlərimizin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin!", - deyə məlumatda bildirilib.

## Qardaş ölkəyə yardımlarımız Türkiyə mediasının diqqət mərkəzindədir

*Əvvəli 1-ci səh.*
















Agentliyin yayımladığı "Türkiyənin xarici nümayəndəliklərində zəlzələdən zərərçəkənlərə yardım səfərbərliyi" sərlövhəli materialda Azərbaycanda intensiv yardım kampaniyasının həyata keçirildiyi vurğulanıb. Diqqətə çatdırılıb ki, azərbaycanlılar yardım işlərində fəal iştirak edirlər.

"cnnturk.com" saytında dərc olunan "Heydər Əliyev Fondundan Türkiyədə zəlzələdən zərərçəkənlərə 105 ton humanitar yardım" sərlövhəli xəbərdə Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə qardaş ölkəyə göndərilən yardımlardan bəhs edilir. Bildirilir ki, zəlzələ bölgəsinə gedən yük təyyarəsində çadırlar və qızdırıcılar daşınır. O cümlədən Heydər Əliyev Fondu tərəfindən fevralın 9-dan etibarən zəlzələdən zərərçəkmiş insanlar üçün müxtəlif dərman vasitələri, tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər, qış çadırları, generatorlar, istilik radiatorları, açıq hava qızdırıcıları, dizel yanacağı qızdırıcıları, müxtəlif material və avadanlıqlar göndərilir.

"haber7.com" saytında yerləşdirilən "Azərbaycan əsgərlərindən "Ürəyimiz Türkiyədə" mesajı" başlıqlı materialda Pakistanda təlimdə olan azərbaycanlı hərbçi Balakişiyevin "əsrin fəlakəti" olaraq xarakterizə edilən Kahramanmaraşdakı zəlzələlərlə bağlı təəssüratları oxuculara çatdırılıb. Hərbçimiz qeyd edib: "Türkiyənin dərdini öz dərdimiz kimi görürük. Təlim üçün komanda olaraq buradayıq, amma ürəyimiz Türkiyədədir. Zəlzələ səbəbindən türk əsgərləri təlimə gələ bilmədilər, lakin onların gözləri arxada qalmasın. Biz burada təkcə Azərbaycanı deyil, qardaş ölkə Türkiyəni də təmsil edirik".

"trthaber.com" saytında dərc olunan məqalədə "yardım dolu avtomobili ilə tanınan azərbaycanlı" Sərvər Bəşirlinin Türkiyəyə gedərək orada zərərçəkənlərə yardım göstərməsindən bəhs edilir. Bildirilir ki, Sərvər Bəşirli artıq Adıyamandadır və zəlzələdən zərər görənlərə könüllü olaraq yardım göstərir.

## *Cahit BAĞÇI:* "Faciənin ilk dəqiqələrindən Azərbaycanın Türkiyənin yanında olduğunu bütün dünya bilir"

"Millətimizin yaşadığı bu dağıdıcı zəlzələdə həyatını itirən vətəndaşlarımıza Allahdan rəhmət diləyirəm. Millətimizin başı sağ olsun, ölənlərin ailələrinə, yaxınlarına səbir diləyirəm. Prezident Rəcəb Tayyip Ərdoğanın liderliyi ilə Türkiyənin bütün qurumları təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün çalışır. Allahın izni ilə bu ağır günləri ən qısa zamanda geridə qoymaq üçün canla-başla çalışırıq. Azərbaycanın faciənin ilk dəqiqələrindən yanımızda olduğunu bütün dünya bilir. Bunun üçün sizə ürəkdən təşəkkür edirik".



AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı söyləyib.

Diplomat qeyd edib ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıqları ilə başda Heydər Əliyev Fondu olmaqla Azərbaycanın bütün ictimai qurumları hərəkətə keçiblər. Zəlzələnin baş verdiyi andan etibarən geyim, qida məhsulları, yorğan, adyal, isidici və digər yardımları bu günə qədər Türkiyəyə çatdırırıq. Bu vaxtadək Azərbaycandan Türkiyəyə 750 tondan çox qida göndərilib.

"Zəlzələ nəticəsində evləri dağılan vətəndaşlarımızın bu qış günlərində isti yerə, çadıra və konteyner evlərə ehtiyacı var. Bunun üçün Türkiyədə çadır, konteyner istehsalı davam edir. Azərbaycan da bu ehtiyacımızı bilərək konteyner istehsalına başladı. Azərbaycanın müxtəlif qurumları tərəfindən humanitar fəaliyyətlər davam edir. İcra hakimiyyətlərinə təşəkkürümü bildirirəm, bizə çox kömək göstərirlər, Azərbaycanın ürəyinin Türkiyə ilə birgə döyündüyünü göstərirlər. Azərbaycanda nümayiş etdirilən birliyə görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təşəkkür edirik", - deyə diplomat bildirib.

## Türkiyəyə modul tipli daha 22 ev yola salınıb

*Əvvəli 1-ci səh.*





Həftənin sonunadək yerli icra hakimiyyəti orqanları tərəfindən modul tipli daha 43 müasir evin təbii fəlakət bölgələrinə göndərilməsi nəzərdə tutulur.

Ağstafa Rayon İcra Hakimiyyəti başçısının müavini Müşfiq Hüseynov jurnalistlərə müsahibəsində deyib: Azərbaycanda Türkiyəyə yardım üçün keçirilən kampaniyaya Ağstafa rayonu da qoşulub. Rayon tərəfindən qardaş ölkəyə modul tipli iki ədəd ev göndərilir. Bu göstərir ki, Azərbaycan-Türkiyə qardaşlığı daimidir, dönməzdir. Biz hər zaman türk qardaşlarımızın yanındayıq. Yaxın gələcəkdə rayonumuz tərəfindən modul tipli daha 3 evin göndərilməsi planlaşdırılır. İnanırıq ki, bu evlər qardaşlarımız üçün faydalı olacaq.

Cəlilabad rayonu tərəfindən qardaş Türkiyəyə modul tipli 5 evin göndərildiyini deyən rayon icra hakimiyyəti başçısının birinci müavini Qalib Xudaverdiyev bildirib ki, qardaş Türkiyədə baş vermiş güclü zəlzələdən zərərçəkənlərə humanitar yardım kampaniyası Azərbaycanın hər yerində olduğu kimi, Cəlilabad rayonunda da davam etdirilir. Cəlilabad rayon sakinləri tərəfindən zəlzələdən zərərçəkənlərə isti geyimlər, dərman ləvazimatları, yataq dəstləri, konservləşdirilmiş ərzaq məhsulları göndərilib. Qardaş Türkiyəyə yardımlar bundan sonra davam etdiriləcək.

Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Məharət Mustafayev qeyd edib: "Türkiyədə dağıdıcı zəlzələ nəticəsində zərərçəkmiş qardaşlarımıza indiyə qədər müxtəlif çeşidlərdə yardım göndərmişik. Bu gün Şirvan şəhərindən Türkiyəyə modul tipli 4 ev yola salınır. İki gün əvvəl isə Türkiyəyə sanitar qovşaqlar göndərilib. Biz Şirvan Şəhər İcra Hakimiyyəti, Şirvan şəhər ictimaiyyəti, sakinləri adından zərərçəkmiş qardaşlarımıza şəfa diləyir, həlak olanların yaxınlarına və doğmalarına başsağlığı veririk".

Zaqatala Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tofiq Əhmədov deyib ki, Türkiyədə baş vermiş dəhşətli zəlzələdən sonra Zaqatala sakinləri səfərbər olaraq rayonda yaradılmış qərargaha müraciət ediblər. Bütün vətəndaşlarımız kimi, zaqatalalılar da yardım aksiyasına qoşulub və bir neçə gün ərzində böyük miqdarda yardım toplayıblar. İndiyədək Zaqataladan Türkiyəyə 7 avtomobil yardım yola salınıb.

"Zaqatala seysmik bölgədə yerləşən ərazidir. 2012-ci ildə baş vermiş zəlzələdən sonra biz bunun nə demək olduğunu daha yaxşı anlayırıq. İndiki vəziyyətdə sakinlərin evlərinin dağılması, onların qışın soyuğunda çöldə qalması bizi ciddi şəkildə narahat edir", - söyləyən icra nümayəndəsi qeyd edib ki, Türkiyə-Azərbaycan dostluğu əbədidir. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, biz bir millət, iki dövlətik. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bir-birinə "qardaş" deyə müraciət etmələri bizi daha fəal, Türkiyənin yanında olmağa sövq edir.

Qeyd edək ki, icra hakimiyyətləri tərəfindən fəlakətin ilk günlərindən ziyan çəkmiş əhaliyə lazım olan isti paltar, yataq dəstləri, müxtəlif ərzaq və sənaye məhsulları, dərman preparatları, qızdırıcılar, generatorlar, çadırlar alınaraq qardaş ölkəyə göndərilir. İndiyədək 57 şəhər və rayon icra hakimiyyəti tərəfindən təşkil olunan humanitar yardım Türkiyənin Kahramanmaraş, Malatya, Adıyaman və digər bölgələrinə yola salınıb.

Şəhər və rayon icra hakimiyyətləri tərəfindən təbii fəlakət bölgəsinə humanitar yardımların göndərilməsi bundan sonra da davam etdiriləcək.

# Budapeştdə Azərbaycan və Macarıstan hökumətləri arasında Birgə Komissiyanın iclası keçirilib

Macarıstanın paytaxtı Budapeşt şəhərində Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın 9-cu iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasdan əvvəl komissiyanın Azərbaycan tərəfindən həmsədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə komissiyanın Macarıstan tərəfindən həmsədri, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyartonun görüşü olub. Həmsədrlər ikitərəfli əməkdaşlığın gələcək istiqamətlərini, komissiyanın iclasının gündəliyini nəzərdən keçiriblər.

Nümayəndə heyətlərinin geniş tərkibdə iştirakı ilə keçirilən iclasda S.Babayev Azərbaycan və Macarıstan dövlət başçılarının siyasi iradəsi və səyləri nəticəsində iki ölkənin əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib.

Prezident İlham Əliyevin bu il yanvarın 29-da Macarıstana rəsmi səfər etməsinin, səfər zamanı Macarıstan Prezidenti xanım Katalin Novak, Macarıstanın Baş naziri Viktor Orbanla görüşlərinin, Azərbaycan ilə Macarıstan arasında genişləndirilmiş strateji tərəfdaşlıq haqqında birgə bəyannamənin, digər bir sıra əməkdaşlıq sənədlərinin imzalanmasının iki ölkənin əlaqələrinin ən yüksək səviyyəyə çatmasını təmin etdiyi vurğulanıb.

Birgə komissiyanın fəaliyyətinin müxtəlif sahələr üzrə əlaqələri daha da inkişaf etdirmək məqsədi daşıdığı qeyd edilib. Azərbaycanda macar şirkətlərinin uğurlu fəaliyyəti, Ermənistanın işğalından azad edilmiş ərazilərdə aparılan quruculuq işlərində Macarıstan şirkətlərinin iştirak etməyə maraq göstərmələrinin məmnunluq doğurduğu diqqətə çatdırılıb.

P.Siyarto ölkəsinin strateji tərəfdaş olan Azərbaycanla əlaqələrinin daim inkişaf etməkdə olmasından və zaman keçdikcə həmin əlaqələrin genişlənməsindən məmnunluğunu ifadə edib.

Azərbaycan və Macarıstanın müvafiq qurumlarının nümayəndələrinin iştirak etdiyi iclasda əlaqələrimizin dost münasibətləri əsasında ildən-ilə gücləndiyi, ölkələrimiz arasında ticarət dövriyyəsinin 2021-ci illə müqayisədə 2022-ci ildə 34,81 faiz artdığı qeyd olunub. İki ölkə arasında enerji, "yaşıl enerji"nin inkişafı və ötürülməsi, kənd təsərrüfatı, əmək, məşğulluq, sosial müdafiə, təhsil, mədəniyyət, turizm, səhiyyə və s. sahələrdə əməkdaşlığın gələcək istiqamətlərinə dair müzakirələr aparılıb.

İkitərəfli və tranzit yük axınlarının artırılması imkanları, qarşılıqlı investisiyaların təşviqi məsələləri nəzərdən keçirilib. Qara dəniz sualtı elektrik və rəqəmsal qoşulma layihəsinin, hər iki ölkədə keçirilən biznes-forumların, işgüzar görüşlərin əhəmiyyəti vurğulanıb.

S.Babayev və P.Siyarto tərəfindən Azərbaycan Respublikası hökuməti və Macarıstan hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın 9-cu iclasının yekunlarına dair protokol imzalanıb.

Komissiyanın həmsədrləri brifinq keçirərək komissiyanın iclasının və müzakirələrin yekunu olaraq gələcək əməkdaşlıq istiqamətlərinin müəyyən olunduğu protokolun Azərbaycan-Macarıstan əlaqələrinin yüksələn xətt üzrə inkişafında mühüm rol oynayacağına əminlik ifadə ediblər.

# Budapeştdə Azərbaycan-Macarıstan biznes-forumu olub





Macarıstanın paytaxtı Budapeşt şəhərində Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın 9-cu iclası çərçivəsində Azərbaycan-Macarıstan biznes-forumu keçirilib.

Biznes-forumda 26-sı Azərbaycan, 61-i Macarıstan tərəfindən olmaqla 87 şirkət iştirak edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a bildirilib ki, birgə komissiyanın Azərbaycan tərəfindən həmsədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Macarıstan tərəfindən həmsədri, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto biznes-forumun bağlanış tədbirində çıxış ediblər. Azərbaycan və Macarıstanın dövlət başçılarının səyləri, imzaladıqları mühüm sənədlər nəticəsində iki ölkənin əməkdaşlıq gündəliyinin daim genişləndiyi vurğulanıb. İki ölkənin işgüzar dairələri arasında əməkdaşlığın inkişaf etdirilməsinin də Hökumətlərarası Birgə Komissiyanın fəaliyyətində əsas hədəflərdən olduğu qeyd edilib. Bakıda və Budapeştdə təşkil olunan biznes-forumların da bu məqsədə xidmət etdiyi bildirilib.

Ermənistanın işğalından azad edilmiş ərazilərimizdə hazırda aparılan geniş quruculuq işlərinə macar iş adamlarının da qoşulmaq üçün maraq göstərmələrinin məmnunluq doğurduğu, ümumilikdə həmin quruculuq işlərində dost ölkələrin iştirakının prioritet əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Yusif Abdullayev Azərbaycanda sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində aparılan məqsədyönlü işlər, əldə olunan nailiyyətlər barədə məlumat verib.

Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədr müavini İsmayıl Manafov Ələt Azad İqtisadi Zonasının investorlar üçün mühüm əhəmiyyətindən bəhs edib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov KOBİA-nın iş adamlarının fəaliyyətinə, onlar arasında əməkdaşlığın qurulmasına və birgə təşəbbüslərin reallaşdırılmasına dəstək tədbirləri barədə məlumat verib.

Həmçinin Macarıstan tərəfindən iş adamları çıxış edərək Macarıstan-Azərbaycan əlaqələrinin genişlənməsi üçün görülən işlərin məmnunluq doğurduğunu, iki ölkənin iş adamları arasında da əlaqələrin inkişafı üçün münbit şərait yaradıldığını vurğulayıblar.

Biznes-forumda iş adamları arasında görüşlər keçirilib, gələcək əməkdaşlığa dair müzakirələr aparılıb.

# Böyük qayıdışın ilk ünvanı olan Ağalıda YAP-ın ərazi partiya təşkilatı yaradılıb

Yeni Azərbaycan Partiyası (YAP) Zəngilan Rayon Təşkilatının "Ağalı kənd" ünvanı üzrə yeni ərazi partiya təşkilatı təsis edilib.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Zəngilan rayonundakı Şəhidlər xiyabanı və Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət olunub.

Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olanların əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Daha sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş etdirilib.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin məsul əməkdaşı Aqil Qurbanov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən, həmçinin YAP-ın müasir müstəqil Azərbaycanın inkişafında müstəsna rolundan bəhs edib. Bildirib ki, harada yaşamasından asılı olmayaraq, tarixi Zəfərimiz hər bir azərbaycanlını qürurlandırır.

YAP Zəngilan Rayon Təşkilatının sədri Natiq Quluzadə vurğulayıb ki, Vətən müharibəsində qazanılmış şanlı Zəfərdən sonra doğma torpaqlarımıza möhtəşəm qayıdışın ilk ünvanı Zəngilan rayonu Ağalı kəndi, Böyük qayıdış sevincini ilk yaşayanlar Ağalı kəndinin sakinləri olublar. Azərbaycan xalqının tarixinin ən əlamətdar, qürurlu anlarını yaşadığını vurğulayan N.Quluzadə deyib: "Vətən torpaqlarımız bütövlüyünə qovuşdu, yüz minlərlə soydaşımızın həsrətinə son qoyuldu. Tarixi Zəfərimizə yol açan uğurlarımızda Yeni Azərbaycan Partiyasının mühüm rolu var. Xalqın istəyi, zamanın tələbi ilə yaranan Yeni Azərbaycan Partiyası, Ümummilli Liderin qeyd etdiyi kimi, dünənin, bu günün və gələcəyin partiyasıdır. Bütün sınaqlardan şərəflə çıxan partiya tarixə adını qələbələr, zəfərlər partiyası kimi həkk edib. Bu gün hər bir Azərbaycan vətəndaşı, partiyanın hər bir üzvü Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Zəfərimizdən qürur duyur".

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Elmar Məmmədov çıxışında Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi zəngin və şərəfli yoldan bəhs edib. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş YAP-ın bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərə imza atdığı, ölkəmizin inkişafına layiqli töhfələr verdiyi vurğulanıb.

Zəngilan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Möhübbət Səmədov və Ağalı kənd tam orta məktəbin direktoru Nərmin Həsənova qeyd ediblər ki, Vətən müharibəsində qazanılmış Zəfər Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətinin Prezident İlham Əliyev tərəfindən inamla və qətiyyətlə davam etdirilməsinin nəticəsidir.

Sonda partiya sıralarına yeni qəbul edilmiş şəxslərə üzvlük vəsiqəsi və hədiyyələr təqdim olunub.

# Bir ömürdən min ömrə gedən yol

Bəzən həkimlərə "Tanrının dostları"da deyirlər. İnsanlara sağlamlıq bəxş etməyi, ömürlərinə ömür calamağı yalnız bu müqəddəs peşə sahibləri bacarırlar. İxtiyar həkim deyir ki, "Həkim gərək öz peşəsinin məsuliyyətini dərk etsin. Xəstə ilə nəinki həkim, həm də dost münasibəti yarada bilsin. İlk növbədə həkim xəstəni özünə inandırmağı bacarmalıdır. Çünki bu, birinci şərtdir, müalicə sonra gəlir. Əgər xəstədə sağalmasına inam yarada bilməmisənsə, anlamalısan ki, zəhmətin hədər gedəcək".



Zamanın keşməkeşli sınaqlarından çıxmış, ömrünün 70 ilini yenicə yola salmış Əməkdar həkim İxtiyar Sultanovu dinlədikcə insanın ruhu sakitləşir. Üzünə sanki zəngin bir həyat məktəbinin qapıları açılır. İxtiyar həkim deyir ki, insanın biliyindən, bacarığından başqa gərək iradəsi də olsun: "Zamanın diktəsi ilə yaşamamalısan. İnsan gərək yaşamaq istədiyi həyatı zamana diktə edə bilsin. Onda qalib olacaqsan, həyat səni yenə bilməyəcək...".

Söhbət etdikcə xatirələri onu keçmişə çəkir. 1979-cu ildən həkimlik fəaliyyətinə başlayan, ömrünü insanların sağlamlığına həsr edən, xəstəsi sevinəndə üzü gülən, ümidsiz olanda ürəyi "qan ağlayan" bir insanın həkimlik hekayəsi belə başlayıb: "Evimizin yaxınlığında dağ var idi. Dağın yamaclarında həmişə qoyun-quzu, mal-davar otlayardı. Yazda bizim dağlar bir ayrı cür gözəl olardı. Gül-çiçək, quşəppəyi, əvəlik, qantəbər, çobanyastığı, kəklikotu bol olardı dağlarda. Sürü axşam örüşdən qayıdanda bir ayrı mənzərəsi olardı bizim yerlərin. Uşaq idim. Bir dəfə anam bərk xəstələnmişdi. Çarəsiz halda idik. Tez dağın yamacına qaçdım. Bir az çobanyastığı, bir az da qantəbər, kəklikotu yığıb geri döndüm. Heç kimə bir söz demədən bitkiləri dəmləyib anama verdim. "İç, ağrıların keçəcək", - dedim. Elə ürəkli hərəkət etdim ki, anam mənə inandı. Hazırladığım "dərmanı" içdikdən sonra "özünə gəldi". Sanki heç nə olmamış kimi ayağa qalxdı. Beləcə, mənim həkimlik həvəsim başladı. O gündən insanların sağlamlığının keşiyində dayanacağıma söz verdim. Arzularım məni Azərbaycan Tibb İnstitutunun Müalicə işi fakültəsinə apardı".

Ömrünün 44 ilini xəstələrin sağlamlığına həsr edən İxtiyar Sultanov sıravi həkim-terapevtlikdən baş həkimliyə, ölkəmizin ən böyük və aparıcı səhiyyə ocaqlarından biri olan Mərkəzi Klinik Xəstəxananın baş direktoru vəzifəsinədək yüksələ bilib. Hazırda Xüsusi Müalicə Sağlamlıq Kompleksində baş həkim işləyir. Bu yolu keçməkdə ona biliyi, bacarığı, çalışqanlığı, insanlara olan sevgisi, ən başlıcası isə sadəliyi kömək edib. İxtiyar həkim deyir ki, "Ömrü insan ömrü kimi yaşasan, bu yaxşı ömür olar. Yaşamağı bacarmasan, zaman olar. Haqqında danışarlar ki, "gəldi, bu dünyaya baxdı, getdi".

Birinci Qarabağ savaşı zamanı ailə üzvlərinin, yaxınlarının israrla "müharibəyə getmə" demələrinə baxmayaraq, İxtiyar həkim də könüllü olaraq döyüş bölgəsinə gedir. Ona "getmə" deyənlərə isə bir cavabı olur: "Bu vətən bizimdir. Hərə yaxasını bir kənara çəksə, düşmən gəlib qapıya dirənər". Müharibənin ən qaynar nöqtələrində olur. Neçə-neçə gəncimizi ölümün pəncəsindən qurtarır. İxtiyar həkim deyir ki, o zaman indiki kimi deyildi: "Dərman, tibbi ləvazimatlar çatışmırdı. Normal bir hospital yox idi. Şəraiti olmayan, məktəblərdə, uşaq bağçalarında, inzibati binalarda, uçulub dağılmış köhnə kənd xəstəxanalarında yaralı əsgərlərə tibbi yardım etməyə çalışırdıq. Çox şükür, indi hər şey geridə qalıb. Orduda da, səhiyyədə də böyük islahatlar həyata keçirildi. Beləliklə, ciddi nizam-intizam bizi qələbəyə apardı. Müzəffər Ali Baş Komandan İlham Əliyev üstümüzdən 30 illik bir ləkəni götürdü. Qürurla deyə bilirik ki, indi Qarabağ dərdimiz yoxdur. Gərək elə çalışaq ki, Qarabağın yaraları da tez sağalsın. İnsanlarımıza arzuladıqları həyatı yaşatmağa nail olmalıyıq. Bunun üçün də hər kəs ona tapşırılan vəzifəni layiqincə yerinə yetirməlidir".

İxtiyar Sultanovun rəhbərlik etdiyi Xüsusi Müalicə Sağlamlıq Kompleksi xidmətin səviyyəsinin yüksəkliyi, müasir diaqnostika, müalicə aparatlarının keyfiyyəti ilə seçilən nümunəvi səhiyyə ocağı kimi tanınır. 300 nəfərdən çox personalın çalışdığı kompleksdə laboratoriya, radiologiya, fizioterapiya, terapiya, pediatriya, stomatologiya, stasionar, cərrahiyyə şöbələri fəaliyyət göstərir. Rəhbərlik etdiyi xəstəxanada Rəqəmsal Rentgen, KT, MRT, Rentgen Mammoqraf, Rentgen Densitometr, Laborator analizatorlar, USM, Holter, Stres test, Endoskop, Kolonoskop cihazları vasitəsilə xəstələrə ən düzgün diaqnozlar qoyulur. Təcrübəli həkimlər tərəfindən həyata keçirilən cərrahi əməliyyatlar və göstərilən müxtəlif tibbi xidmətlər nəticəsində minlərlə insan yenidən sağlamlığına qovuşur, şəfa tapır.

Bizimlə söhbətində İxtiyar həkim dedi ki, məqsədimiz vətəndaşlarımıza yüksək səviyyədə və beynəlxalq standartlara cavab verən səhiyyə xidməti göstərmək, onlar üçün xarici ölkələrdə deyil, məhz öz vətənlərində müalicələrinə şərait yaratmaq, həmçinin bu məqsədlə xaricə aparılan valyuta axınının qarşısını almaqdır. Bunun üçün isə yüksək tibbi biliyə və bacarığa malik milli səhiyyə kadrları hazırlamalıyıq. İftixarla deyə bilərik ki, artıq bu sahədəki uğurlarımızla qürur duya bilərik.

Yeri gəlmişkən, İxtiyar Sultanovun rəhbərlik etdiyi Xüsusi Müalicə Sağlamlıq Kompleksində nizam-intizam qaydalarına çox ciddi nəzarət olunur. Həkimlərin, tibbi personalın xəstələrlə davranışlarını öyrənmək və şəffaflığı təmin etmək məqsədilə tez-tez sorğu keçirilir. Pasiyentlərin öz arzu, təklif və şikayətlərini aşkar və məxfi şəkildə bildirmələri üçün xüsusi şərait yaradılıb. Hər ay müraciət və şikayətlərin təhlili aparılır, qaldırılan məsələlərlə bağlı lazımi tədbirlər görülür və bu barədə müraciət edən şəxslərə rəsmi qaydada məlumat verilir.

Əməkdar həkim İxtiyar Sultanov yeniliyə can atan, mütərəqqi ideyaların tətbiq edilməsinə çalışan bir insandır. Rəhbərlik etdiyi səhiyyə müəssisəsində tibbi xidmətin yaxşılaşması üçün daim axtarışdadır. Xəstələr bu sağlamlıq müəssisəsində də İcbari Tibbi Sığorta sisteminin yaratdığı imkanlardan tam yararlana bilirlər. İxtiyar həkim deyir ki, İcbari Tibbi Sığortanın tətbiqi xəstələrin təminatlı müalicəsini təşkil edən ən yaxşı vasitədir. Bu üsulun tətbiqi həm də həkimi ələbaxımlılıqdan xilas edib. İmkansız xəstələr, alternativ müalicə ala bilməyən vətəndaşlarımız heç bir sıxıntı çəkmədən rahatlıqla tibbi xidmət ala bilirlər: "Demirəm ki, bu sahədə nöqsan yoxdur, hər şey idealdır. Amma artıq fərq göz qabağındadır. Hər şey yaxşıya doğru gedir".

İxtiyar Sultanov həm də gözəl ata, nümunəvi ailə başçısıdır. Vətənə xidmət edən iki ləyaqətli övlad yetişdirib. Qızı Aytən Sultanova atasının yolunu davam etdirir. Hazırda "Məlhəm" klinikasında baş həkimin müavini işləyir. Oğlu Elnur Sultanov diplomatik fəaliyyətlə məşğuldur. Ölkəmizi Braziliyada, Mərakeşdə ləyaqətlə təmsil edib. Hazırda Latviyada fövqəladə və səlahiyyətli səfirdir. Dövlətlərimiz arasında dostluq, strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsində Elnur Sultanovun böyük xidmətləri var.

Həyat birtərəfli yola bənzəyir. Geri dönmək mümkün deyil. Gərək elə ömür yaşayasan ki, getdiyin yoldan keçmək istəyənlər olsun. Dönüb geri baxanda işinlə, əməlinlə qürur duyasan. "Mən bu ömrü ləyaqətlə yaşadım" deyə biləsən. İxtiyar Sultanov həkim ömrünü şərəflə yaşamağı bacaranlardandır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Avtomobillər aksiya ərazisindən sərbəst keçib










Laçın-Xankəndi yolunda təşkil olunan aksiyanın 69-cu günündə də Rusiya sülhməramlılarına məxsus avtomobillər aksiya ərazisindən maneəsiz keçiblər.

Sülhməramlılara məxsus 2 minik, 16 təminat-təchizat avtomobilinin Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib.

* * *

Rusiya sülhməramlılarına məxsus 2 minik, 26 təminat-təchizat avtomobili Laçından Xankəndi istiqamətinə maneəsiz keçib. Bu, bir daha onu göstərir ki, heç də siyasi xarakter daşımayan aksiya humanitar məqsədlərə xidmət edir.

* * *

Sülhməramlılara aid iki avtomobilin Laçından Xankəndi istiqamətinə hərəkətinə şərait yaradılıb.

* * *

Rusiya sülhməramlılarına məxsus doqquz avtomobil azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda dinc məqsədlə təşkil etdikləri aksiya ərazisindən sərbəst keçib.

Doqquzu yük, biri isə minik avtomobili olan nəqliyyat vasitələri Xankəndidən Laçına doğru hərəkət edib. Xatırladaq ki, dünən sülhməramlılara məxsus 60 avtomobil aksiya ərazisindən sərbəst keçib. Sülhməramlılara aid nəqliyyat vasitələrinin aksiya ərazisindən heç bir maneə olmadan hərəkət etməsi bir daha aksiyanın məramını açıq-aşkar göstərir. Azərbaycanlı ekofəallar ilk gündən olduğu kimi, humanist prinsiplərə sadiqdirlər.

Qeyd edək ki, Ermənistan mətbuatında yayılan və etirazçıların guya Laçın-Xankəndi yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

***AZƏRTAC***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "Azəri" Azərbaycana gəlir gətirməkdə davam edir

### Yataqdan hasilata başlanmasından 18 il keçir



**İşlənməsi "Əsrin müqaviləsi"nin mühüm bir mərhələsini təşkil edən, AÇG ("Azəri-Çıraq-Günəşli") blokunun ən böyük yatağı olan "Azəri" üç böyük hissədən ibarətdir. "Mərkəzi Azəri", "Qərbi Azəri" və "Şərqi Azəri"nin hər biri özlüyündə bir yataq təşkil edir. Odur ki, 2005-ci il fevralın 18-də mərkəzi hissədən neftin alınması ümumilikdə "Azəri"dən hasilata başlandığı tarix sayılır.**

AÇG yataqları ölkəmizin əsas gəlir mənbələrindən biri olaraq qalır. Bu baxımdan "Azəri" xüsusi önəm daşıyır. Belə ki, "Azəri" həm ehtiyatlarının zənginliyinə, həm də ərazisinin böyüklüyünə görə, ümumiyyətlə, dünyadakı iri karbohidrogen mənbələrindən biri hesab olunur. Təsadüfi deyil ki, "Azəri"ni AÇG-nin "şah damarı" adlandırırlar.

18 il əvvəl ilk neftin alınması münasibətilə "Mərkəzi Azəri" platformasında təntənəli tədbir keçirildi. Tədbirdə vurğulandı ki, qarşıya qoyulmuş bütün vəzifələr, planlar həyata keçirilir. Bütün çətinliklərə, maneələrə baxmayaraq, mürəkkəb geosiyasi vəziyyətdə Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda uğurla işləyir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapır. Bu hadisə "Əsrin müqaviləsi"nin kulminasiya nöqtəsi sayılır.

2005-ci ilin mayında ilk dəfə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəmərinə məhz "Mərkəzi Azəri" nefti vuruldu. Növbəti illərdə "Qərbi Azəri" və "Şərqi Azəri" platformalarından da neft alındı.

"Azəri" nefti Səngəçala 30 düymlük sualtı borularla çatdırılır. Yataqda hasil olunan qazın bir hissəsi laylardakı təzyiqi saxlamaq üçün və yanacaq kimi platformalarda istifadə olunur. Qalan hissəsi 28 düymlük sualtı xətlərlə terminaldakı texnoloji emal qurğularına nəql edilir və buradan ölkənin daxili istifadəsi üçün "Azəriqaz" şəbəkəsinə ötürülür.

"Azəri" yatağından çıxarılan nefti və səmt qazını Səngəçal terminalına çatdırmaq üçün dənizdə ümumi uzunluğu 600 kilometrdən çox olan sualtı borular çəkilib. Terminalda həmin karbohidrogenləri ilkin emal edib müvafiq kəmərlərə vurmaq üçün geniş infrastruktur yaradılıb.

Hazırda AÇG-dən hasilat ahəngdar və təhlükəsiz şəkildə davam edir. Operator olan bp şirkətinin məlumatına görə, keçən il AÇG-dən ümumi hasilat təxminən 152 milyon barel, yəni 20 milyon ton olub. Gündə orta hesabla 415 400 barel neft hasil edilib. Gündəlik orta hasilat "Çıraq"dan 25 min 200, "Mərkəzi Azəri"dən 104 min 100, "Qərbi Azəri"dən 106 min 400, "Şərqi Azəri"dən 64 min, "Dərinsulu Günəşli"dən 76 min 300 və "Qərbi Çıraq"dan 39 min 400 barel olub.

İlin sonuna olan məlumata görə, AÇG-də ümumilikdə 141 neft hasilatı, 41 su injektor və 8 qaz injektor quyusu istismardadır. İl ərzində blokda 12 neft hasilatı və 3 su injektor quyusu tamamlanıb. Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 7 milyon kubmetr, ümumilikdə isə 2,6 milyard kubmetr səmt qazı təhvil verilib.

Yaxın zamanlarda "Azəri"nin yeni qonşusu da olacaq. 2017-ci ilin sentyabr ayında AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişinin əsrin ortasınadək uzadılması burada yeni bir platformanın yerləşdirilməsini gündəmə gətirdi. Tikilməkdə olan bu qurğu "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasındakı məsafədə quraşdırılacağına görə "Azəri Mərkəzi Şərqi" (ACE) adlanır.

Platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri Bibiheybətdəki tikinti sahəsində davam edir. Dayaq bloku isə Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda STB-01 daşıma barjasına yüklənib və artıq dənizə yola salınmağa hazırdır. Ümumilikdə ACE layihəsi üzrə işlərin 80 faizdən çoxu tamamlanıb.

Xatırladaq ki, AÇG-də iştirak payları belədir: bp (30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), İNPEKS (9,31faiz), "Ekvinor" (7,27 faiz), "EksonMobil" (6,79 faiz), TPAO (5,73faiz), İTOÇU (3,65faiz), ONGC-Videş (2,31faiz).

*"Azərbaycan"*

## Qeyri-neft-qaz sektoruna yönəldilən vəsait 2,5 dəfə artmışdır

**Ötən ay əsas kapitala 1 milyard 91,7 milyon manat məbləğində, yaxud 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 61,2 faiz çox vəsait yönəldilmişdir.**

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 8,8 faiz azalmış, qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 2,5 dəfə artmışdır. İstifadə olunmuş vəsaitin 506,2 milyon manatı və ya 46,4 faizi məhsul istehsalı sahələrinə, 529,0 milyon manatı (48,4 faizi) xidmət sahələrinə, 56,5 milyon manatı (5,2 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 812,1 milyon manatını və ya 74,4 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 844,2 milyon manatı və ya 77,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 41,2, büdcə vəsaitləri 47,7, əhalinin şəxsi vəsaitləri 6,0, bank kreditləri 2,9, sair vəsaitlər isə 2,2 faiz təşkil etmişdir.

## Yanvar ayında 6,5 milyard manatlıq sənaye məhsulu istehsal edilmişdir

**Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən cari ilin yanvar ayında 6,5 milyard manatlıq sənaye məhsulu istehsal edilmişdir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, neft-qaz sektorunda məhsul istehsalı 4,9 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 2,0 faiz artmışdır.

Sənaye məhsulunun 74,1 faizi mədənçıxarma sektorunda, 20,5 faizi emal sektorunda, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,5 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 6,9 faiz, əmtəəlik qaz hasilatı isə 1,3 faiz azalmışdır.

Emal sektorunda dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 2,9 dəfə, ağacın emalı və ağacdan məmulatların istehsalı 2,9 dəfə, maşın və avadanlıqların istehsalı 80,3 faiz, poliqrafiya məhsullarının istehsalı 75,6 faiz, kağız və karton istehsalı 44,9 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 44,6 faiz, elektrik avadanlıqlarının istehsalı 30,9 faiz, geyim istehsalı 25,4 faiz, içkilərin istehsalı 24,1 faiz, tikinti materiallarının istehsalı 20,7 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 17,5 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 7,9 faiz artmış, qida məhsullarının istehsalı 0,1 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 2,6 faiz, tütün məmulatlarının istehsalı 4,2 faiz, neft məhsullarının istehsalı 9,0 faiz, kimya sənayesi məhsullarının istehsalı 18,1 faiz, mebel istehsalı 18,6 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 23,5 faiz, hazır metal məmulatlarının istehsalı 24,5 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 37,7 faiz, əczaçılıq məhsullarının istehsalı 45,5 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 49,8 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 8,3 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 15,4 faiz artmışdır.

## Əmək bazarı üzrə işçi qrupunun növbəti iclası olub

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Əmək bazarı üzrə işçi qrupunun növbəti iclası keçirilib.**

İclasda işçi qrupunun rəhbəri, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, komissiyanın katibliyinin rəhbəri, Prezident Administrasiyasının sektor müdiri Vüsal Şıxəliyev, işçi qrupunda təmsil olunan dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və biznes strukturlarının nümayəndələri iştirak edib.

İclasda ölkəmizdə əmək bazarının inkişafına, aktiv məşğulluq proqramlarının genişləndirilməsinə yönələn islahatların ötən il də davam etdirildiyi, həmçinin əməkhaqqı islahatlarının ardıcıl xarakter aldığı diqqətə çatdırılıb. Aparılan bu islahatların əsas beynəlxalq indekslərdə Azərbaycanın əmək bazarı üzrə göstəricilərinə müsbət təsiri qeyd olunub. 2022-ci il üzrə Fəaliyyət Planı əsasında işçi qrup tərəfindən məqsədyönlü işlərin görüldüyü diqqətə çatdırılıb.

İclasda işçi qrupunun 2022-ci il üzrə Fəaliyyət Planının icra hesabatı təqdim edilib, bu il üzrə nəzərdə tutulmuş tədbirlər müzakirə olunub. Əlverişli Biznes Mühiti Hesabatının "İşçi Qüvvəsi" indikatoru üzrə təsdiq edilmiş Yol Xəritəsinə dair görülmüş işlər diqqətə çatdırılıb.

Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya tərəfindən əmək bazarına dair aparılmış tədqiqatın nəticələri təqdim edilib.

## Keçən il əlilliyi olan 1600 şəxs üçün kiçik təsərrüfatlar yaradılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramının icrasında həssas əhali qruplarına, o cümlədən əlilliyi olan şəxslərə üstünlük verilir.**

Ötən il bu proqram çərçivəsində 1600 şəxsə kənd təsərrüfatı, istehsal və xidmət sahələri üzrə mal və materiallar formasında aktivlər verilərək onlar üçün kiçik təsərrüfatlar yaradılıb.

Proqram cəlb olunan şəxslər üçün ilk mərhələdə təlimlər təşkil olunub, təlimlərdə kiçik biznesin təşkili və idarəedilməsi üzrə bilik və bacarıqlara yiyələniblər.

## ƏƏSMN-in e-xidmətlərinə 479 min müraciət olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə əhaliyə təqdim olunan elektron xidmətlərə 2023-cü ilin ilk ayında 479 min müraciət qeydə alınıb.**

Həmin dövrdə 3,9 min pensiya, 12,3 min müavinət və təqaüd təyinatı, həmçinin 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olanlara birdəfəlik müavinət üzrə daha 140 təyinat e-sistem üzərindən, proaktiv qaydada aparılıb.

Son bir e-qaydada 16,4 min fərdi şəxsi hesab da açılıb, nazirliyin fəaliyyət sahələri üzrə 50 minədək e-arayış verilib.

## Ötən il verilmiş güzəştli kreditlərin 69,7 faizi regionların payına düşüb




**Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2022-ci il ərzində verilmiş güzəştli kreditlərin 69,7 faizi regionların payına düşür.**

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib. Nazir bildirib ki, regionlarda bizneslərin dayanıqlılığının artırılması və sahibkarlıq mühitinin təşviqi prioritet istiqamətlərdəndir.

## *Qəri COUNZ:* "Növbəti 30 ildə Azərbaycanda daha böyük işlər görəcəyik"

**Dünən bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz ölkəmizin neft mövzusunda yazan jurnalistləri üçün brifinq keçirdi. Tədbirdə şirkətin operatoru olduğu layihələrdə qazanılmış nailiyyətlər qeyd olunmaqla yanaşı, hazırda görülən işlər və qarşıdakı planlar barədə geniş məlumat verildi.**

Q.Counz ilk növbədə baş vermiş böyük təbii fəlakət - zəlzələ nəticəsindəki itkilərlə bağlı Türkiyə xalqına başsağlığı verdi. Eyni zamanda qeyd etdi ki, bp dərhal öz köməyini təklif edib və yanacağa tələbat olduğunu bilərək bu istiqamətdə yardım göstərib. Zəlzələdə zərərçəkənlərə və onun nəticələrinin aradan qaldırılmasına bp qrupu tərəfindən ilkin olaraq 5 milyon dollar vəsait ayrılıb. İmkanlar və tələbat nəzərə alınaraq yardımlar davam etdiriləcək.

Zəlzələ zonasında şirkətin ixrac və satışla bağlı əməliyyatları həyata keçirilirdi və orada əməkdaşları fəaliyyət göstərirdi. Xoşbəxtlikdən həmin işçilərin heç biri zəlzələdən ziyan çəkməyib.

Məlum olduğu kimi, baş vermiş fəlakətlə əlaqədar Ceyhan terminalında tankerlərin yüklənməsi işləri müvəqqəti olaraq dayandırılmışdı və artıq bərpa edilib. Hazırda Ceyhan terminalında yükləmə əməliyyatları davam edir və yaxın günlərdə qrafik öz qaydasına düşəcək. Terminalda əməliyyatların dayandırıldığı vaxt ixrac olunan neft oradakı böyük tutumlu çənlərə yığılıb. Bu da "Azəri-Çıraq-Günəşli"də (AÇG) hasilatın davam etməsinə imkan verib və Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri ilə neft axını öz qaydası ilə gedib. Qeyd olunmalıdır ki, BTC-nin bu dövrdə nefti heç bir çətinliksiz daşıması onun həm borularının yüksək keyfiyyətini, həm də yerüstü qurğularının, yəni nasos stansiyalarının möhkəmliyini bir daha göstərib.




bp-nin regional prezidenti məmnunluqla qeyd etdi ki, istər COVID-19-un kəskin dövrünün, istər Azərbaycanın Vətən müharibəsi günlərinin neft-qaz və ixrac layihələrinə mənfi təsiri olmadı. Həmin dövrdə Azərbaycan hökuməti, həmçinin SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) həyata keçirilməkdə olan layihələrlə bağlı xaricdən gətirilən materialların çatdırılmasında və digər işlərdə öz dəstəyini əsirgəmədi. Eləcə də indi Rusiya-Ukrayna müharibəsi ilə bağlı dünyadakı vəziyyət işi əngəlləmir. Yeri gəlmişkən, Azərbaycan neftçilərinin, o cümlədən bp-də işləyənlərin fədakarlığı, qəhrəmanlığı qeyd olundu. Azərbaycanda bu sahədə zəngin ənənələrin olduğu və dövlətin neftçi əməyinə yüksək qiymət verdiyi vurğulandı. O da xatırlandı ki, son illər bp-nin dünyanın digər neft-qaz regionlarındakı layihələrində çalışan azərbaycanlı mütəxəssislərin sayı artır və onlar yüksək iş səviyyəsi nümayiş etdirirlər.

Məlum olduğu kimi, AÇG-də hasilat aşağı düşür və bu, təbii prosesdir. Onu sabit saxlamaq üçün isə kompleks tədbirlər görmək, investisiya yönəltmək, yeni quyular qazmaq və mövcud quyularda əlavə işlər aparmaq, yeni texnologiyalar tətbiq etmək lazım gəlir. Əlbəttə, bütün bu işlər aparılır. Hasilatı artırmağın növbəti yolu isə AÇG sahəsində yeni platformanın quraşdırılması olacaq. Bu qurğunun dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda inşa edilib. Hazırda blok daşıma barjına yüklənib və dənizə yola salınmaq üzrədir. Prezident İlham Əliyev zavoda səfər edərək qurğu ilə tanış olub və dənizə yola salınma prosesinə start verib. "Azəri Mərkəzi Şərqi" (ACE) adlanan həmin platformanın üst modulları isə Bibiheybətdəki tikinti-quraşdırma sahəsində inşa edilir. Bu ilin ikinci rübündə onların dənizə yola salınması, gələn ilin birinci rübündə isə ilk neftin əldə olunması gözlənilir. ACE-nin necə bir böyük layihə olduğunu təsəvvür etmək üçün tikintinin qızğın vaxtında burada 5500 işçinin çalışdığını demək kifayətdir.

Sözügedən tədbirdə "Şahdəniz"dən qaz hasilatı və ümumiyyətlə, Avropanın Azərbaycanın mavi yanacağına artan tələbatı barədə də geniş söhbət getdi. Bildirildi ki, zaman bu konsepsiyanı xeyli fəallaşdırıb. Cari ayın əvvəlində "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən 9-cu toplantısı bunu bir daha göstərdi. Counz qeyd etdi ki, həmin toplantıda altıncı dəfədir iştirak edib və ildən-ilə istər layihəyə, istərsə də şuranın işinə qoşulan şirkət və ölkələrin artdığının şahidi olur.

Əlbəttə, qaz ixracını artırmaq üçün infrastruktur genişləndirilməli, eyni zamanda hasilat artırılmalıdır. Odur ki, Xəzərin Azərbaycan sektorunda qaz axtarışı ilə iki yeni quyunun qazılmasına başlanıb. İndiyədək AÇG-dən böyük həcmdə səmt qazının hasil olunduğu yaxşı məlumdur. Lakin blokun mavi yanacaq ehtiyatları bununla bitmir. AÇG-nin dərin qazının olduğu ehtimalı da var. Bununla bağlı dərin laylarda qiymətləndirmə işlərinə başlanılıb. Strukturda istismarda olan neft yataqlarının altındakı dərin qaz layları haqqında məlumat toplamaq məqsədi ilə yeni bir qiymətləndirmə quyusunun qazılması üçün əməliyyatlar aparılır. "Şahdəniz"də də yeni kəşfiyyat quyusunun qazılmasına start verilib. İşlərin uğurlu olacağı təqdirdə quyu şərq cinahda hazırda istismar edilən məhsuldar layların altındakı daha dərin harizontların qazma xüsusiyyətləri, hasilat imkanları və qaz ehtiyatları potensialı haqqında daha aydın təsəvvür yaradacaq.

bp şirkəti ötən 30 ildə Azərbaycanda iri layihələrin əməliyyatçısı kimi gördüyü nəhəng işlərlə qürur duyur. Bununla yanaşı, növbəti 30 ildə də ölkəmizdə olacağını və həmin dövrdə daha böyük nailiyyətlər qazanacağına ümidvar olduğunu bəyan edir. Q.Counz Azərbaycanın yaxın gələcəkdə bərpaolunan enerji sahəsində uğurlar qazanacağına əmin olduğunu bildirir. İstər günəş, istərsə də külək enerjisinin istehsalı üçün ölkəmizin böyük potensialı olduğunu vurğulayır. Artıq bp də bu işə qoşulub. Belə ki, Cəbrayıl rayonunda günəş-elektrik stansiyasını tikmək qərarındadır. 240 meqavatlıq bu obyekti məhz işğaldan azad olunmuş ərazilərdə inşa edəcəyindən məmnunluğunu bildirir. Şirkət Azərbaycan hökuməti və "Azərenerji" ilə birgə iş aparır ki, gələcəkdə vertual enerjiötürmə sistemi yaratsın. Məsələn, hasil ediləcək enerjinin Səngəçal terminalına gətirilməsi fikirləri mövcuddur. Əgər həmin enerji obyektin işinə yönəldilərsə, buna sərf olunan qaz digər məqsədlərə istiqamətləndirilər.

Əməliyyatçı şirkət Azərbaycanda sosial layihələrə ardıcıl olaraq sərmayə yönəltməyi də davam etdirir. Belə ki, indiyədək ölkəmizdə bu məqsədlə 100 milyon dollar vəsait xərcləyib. Sosial layihələr sırasında təhsilə diqqət önəmli yer tutur. Təhsil dedikdə, həm orta və ali təhsil müəssisələrinə, həm də kiçik və orta biznes sahəsində fermerlərin bilik və səriştəsinin artırılmasına verilən dəstək nəzərdə tutulur. Bu layihələrlə bağlı tez-tez Azərbaycanın universitetlərində olan Qəri Counz həmin təhsil müəssisələrində oxuyan tələbələrin bilik səviyyəsindən, ixtisas hazırlığından çox razı qaldığını bildirdi. Məhz bu gənclər enerji keçidi dövrünün mütəxəssisləri, gələcəyin daha böyük layihələrinin icraçıları olacaqlar.

bp-nin regional prezidenti Azərbaycan jurnalistlərinin suallarını da ətraflı cavablandırdı.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## *Dövlət Komissiyası:* "Qaradağlı kəndinin işğalı zamanı 57 nəfər qətlə yetirilib"

Azərbaycan Respublikası, Xocavənd rayonu, Qaradağlı kəndinin Ermənistan hərbçiləri və terrorçu quldur dəstələri tərəfindən işğalından 31 il keçir.

Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildirilib ki, 1992-ci il fevralın 17-də milliyyətcə erməni beynəlxalq terrorçu, ASALA terror təşkilatının lideri Monte Melkonyanın rəhbərliyi ilə Azərbaycan Respublikasının Xocavənd rayonunun Qaradağlı kəndi işğal edilərkən dinc əhaliyə qarşı amansız soyqırımı həyata keçirilib.

İşğal zamanı kənddə olan 116 nəfərdən 57 nəfər qətlə yetirilib. Kənd sakinlərinin qətlində Ermənistan hərbçiləri ilə yanaşı mülki ermənilər, o cümlədən Qaradağlı kəndinə yaxın kəndlərin erməni sakinləri də yaxından iştirak ediblər

Əsir-girov götürülmüş kənd sakinləri amansız işgəncələrə məruz qalıb, onlara qarşı aşkar soyqırımı həyata keçirilmiş, etnik təmizləmə aparılıb.

Soyqırımı zamanı qətlə yetirilmiş 57 nəfərdən 27 nəfərin cəsədi sonradan Azərbaycan tərəfinə qaytarılsa da, 30 nəfərin meyiti təhvil verilməyib. Bununla yanaşı, girov götürüldükdən sonra əvvəlcə işğal edilmiş Xankəndi şəhərinə, oradan isə naməlum istiqamətə aparılmış 9 nəfərin də sonrakı taleyi barədə məlumatlar gizlədilib. Hazırda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında Xocavənd rayonunun Qaradağlı kəndi işğalı zamanı 39 nəfər itkin düşmüş şəxs kimi axtarışdadır. Onlardan 33 nəfər kişi, 5 nəfər uşaq (oğlan), 1 nəfər isə qadındır.

Əsir-girov götürülmüş 50 nəfər (47 mülki, 2 hərbçi, 1 polis əməkdaşı) isə sonradan azad olunub.

## Macarıstanda mindən çox azərbaycanlı tələbə təhsil alır



Macarıstanda səfərdə olan əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayev səfər çərçivəsində Macarıstanda təhsil alan azərbaycanlı tələbələrlə görüşüb.

Nazir Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, gənclərimizin ölkəmizin inkişafı proseslərində fəal iştirakını qeyd edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Babayev Azərbaycan vətəndaşlarının dövlət xətti ilə xarici ölkələrin ali təhsil müəssisələrində təhsil almasına şərait yaradılması üçün görülən işləri diqqətə çatdırıb.

Azərbaycanla Macarıstan arasında əlaqələrin strateji tərəfdaşlıq əsasında daim genişləndiyi, təhsil sahəsində də əməkdaşlığın inkişaf etdiyi, hazırda Macarıstanda mindən çox Azərbaycan vətəndaşının təhsil aldığı qeyd edilib.

Gənclərin əmək bazarına və kiçik biznesə çıxışının dəstəklənməsi, əmək bacarıqlarının artırılması üçün ölkəmizdə həyata keçirilən aktiv məşğulluq proqramlarından bəhs olunub.

Xarici ölkələrdə təhsilini yüksək səviyyədə başa vuraraq Azərbaycana geri dönən kadrların da ölkəmizdə uğurlu sosial-iqtisadi islahatlar prosesində iştirakının təmin edilməsi sahəsində aparılan işlər qeyd olunub.

Görüşdə S.Babayev tələbələri maraqlandıran sualları cavablandırıb.

## Dünyada mühacirət artır









**Bir sıra sosioloji təşkilatlar bütün dünyada rəy sorğuları keçirir, digər məsələlərlə yanaşı, müxtəlif ölkələrdə insanların iqtisadi gözləntilərini və ümidlərini, müxtəlif problemlərə münasibətini də öyrənirlər. Bu yaxınlarda aparılan araşdırma isə əhalinin miqrasiyasına həsr olunub.**

Məlumata əsasən, 57 ölkədə respondentlərdən soruşublar ki, onlar başqa ölkədə yaşamağı, yoxsa evdə qalmağı üstün tuturlar. Üçdəbirindən çoxu mühacirət etmək istədiklərini bildirib. İnsanlar müxtəlif səbəblərdən yaşadıqları ölkəni dəyişirlər. Sosioloqlar bildirirlər ki, əslində, miqrasiya müəyyən dərəcədə normal, bir çox hallarda isə müsbət haldır. Araşdırmalar göstərir ki, dünya miqyasında orta hesabla yetkin əhalinin təxminən üçdəbiri, yəni 36 faizi mühacirət etməyə hazırdır.

Qeyd edək ki, iki il əvvəl dünyanın 122 ölkəsində aparılmış sorğunun nəticələrinə görə, Yer üzünün yetkin əhalisinin 16 faizi (təxminən 900 milyon nəfər) belə bir imkan düşərsə, öz ölkələrini həmişəlik tərk etmək istəyində olduqlarını bildirib.

İnsanların miqrasiya ilə bağlı istəkləri son 12 ildə ən yüksək həddə çatıb. Hazırkı qlobal mühitdə bu, yəqin ki, normadır. Bu, insanın yaşadığı yer ilə onun gözlədiyi və ya arzuladığı həyat keyfiyyəti arasındakı əlaqənin subyektiv şəxsi qavrayışını yaxşı büruzə verir.

Əvvəlki sorğularla müqayisədə bu dəfə emiqrasiya potensialında bir qədər artım qeydə alınıb. Bəlkə də burada xüsusi sürpriz yoxdur. Gənc nəsillər, o cümlədən Avropada yaşayanlar da getdikcə daha çox mobilləşirlər. Dünyanın bir çox yerlərində - xüsusilə inkişaf etməkdə olan ölkələrdə - şəhərlərin yoxsul əhalisi daha yaxşı yerə köçməyə cəhd edir. Müəyyən uğur qazanmış bir çox insanlar isə kiçik bazarda öz bacarıq və qabiliyyətlərini inkişaf etdirmək üçün kifayət qədər potensial görmürlər.

Təbii ki, müharibə və qlobal iqtisadi böhran dövründə qeyri-müəyyənlik artır və miqrasiya çox vaxt daha cəlbedici bir seçimə çevrilir. Əslində, burada təəccüblü heç nə yoxdur. İnsanlar nə qədər gənc və yoxsuldursa, onların miqrasiya ehtimalı da bir o qədər yüksəkdir.

Maraqlıdır ki, sorğu Avropa İttifaqına üzv olan bəzi ölkələrdən miqrasiya etmək istəyənlərin digər ölkələrlə müqayisədə daha çox olduğunu göstərib. Aİ daxilində miqrasiya sistemli və davamlıdır. Bir çoxları yaşadıqları ölkələrini sadəcə olaraq dəyişmək imkanları olduğu üçün addım atdıqlarını bildirirlər. Lakin bu halda miqrasiya, əsasən, Aİ-nin bir ölkəsindən digərinə baş verir.

Araşdırmada qeyd olunur ki, miqrasiya istəyi ilə bağlı vəziyyət hər yerdə eyni olmayıb. İki il öncə istər Aİ, istərsə də Şərqi Asiya ölkələrində miqrasiya istəyi xeyli azalmışdı və Aİ-də Almaniya və Fransa, Şərqi Asiyada Cənubi Koreya və Çin kimi ölkələrdə insanların mühacirət arzusu ən aşağı səviyyəyə enmişdi.

Ukraynada əhalinin təxminən üçdəbiri artıq ölkəni tərk edib. Müharibə başlayandan sonra bir çox Avropa ölkələri Rusiyadan xeyli miqrant axını ilə üzləşib. Bunlar səfərbərlikdən qaçmaq, müharibəyə qarşı çıxmaq və ya daha demokratik, açıq cəmiyyətə qovuşmaq istəyən insanlardır. Ancaq sorğu zamanı Rusiyada respondentlərin yalnız 15 faizi mühacirət etmək istədiyini bildirib.

Miqrasiya istəyi Latın Amerikası və Karib hövzəsi dövlətləri, Afrikanın cənub-şərqi, Asiya və Müstəqil Dövlətlər Birliyinin (MDB) bəzi ölkələrində də son 12 ildə ən yüksək həddə çatıb.

Ermənistanda isə vəziyyət, ümumiyyətlə, acınacaqlıdır. Son 30 ildə ölkə əhalisinin 31 faizi vətənini tərk edib. Hazırda isə yetkinlik yaşına çatmış ermənilərin təxminən 70 faizi mühacirət etməyə hazırdır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciətlər əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 15 fevral 2023-cü il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 8 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

**"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən ləğv olunan lisenziyaların siyahısı**

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Abdullayeva Aysel İsmayıl qızı | 07.08.2015 | 080684 | 1403141212 |
| 2 | Ələkbərov Murad Niyaz oğlu | 21.05.2014 | 080578 | 1802314282 |
| 3 | Əlizadə Sərdar Şakir oğlu | 11.04.2013 | 000920 | 2302195852 |
| 4 | Fərəcov Teymur Rauf oğlu | 16.11.2009 | 000291 | 1302066292 |
| 5 | İbrahimov Rafiz Ramiz oğlu | 27.08.2010 | 000359 | 3400342872 |
| 6 | Kərimova Səbinə Vidadi qızı | 05.10.2018 | SA-0079 | 1005373462 |
| 7 | Mirzəyeva Nərgiz Feyzulla qızı | 08.05.2012 | 000646 | 1801684352 |
| 8 | Yusifova Günay Rəfail qızı | 29.12.2020 | SA-0207 | 1005876642 |

## "Azərişıq" ASC-nin sədri Tərtər şəhərində vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vətəndaşların şəhər və rayonlarda qəbulunun keçirilməsinə dair tapşırığına uyğun olaraq "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov fevralın 16-da Tərtər şəhərində Tərtər və Ağdam rayonlarından olan vətəndaşları qəbul edib. Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, qəbul Tərtər şəhəri, Heydər Əliyev prospekti, 2 ünvanında yerləşən "Azərişıq" ASC-nin Tərtər Elektrik Şəbəkəsinin inzibati binasında keçirilib.

Qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən baş tutub.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Tərtər şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub və əziz xatirəsinə dərin ehtiram ifadə edilib.

Qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

Vətəndaşlar bölgələrdə qəbulla bağlı göstərdiyi diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını bildiriblər.

## Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən vətəndaşların müraciətlərinə baxılması, o cümlədən Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin qayğılarına xüsusi həssaslıqla yanaşılması ilə bağlı tövsiyələri Ali Məhkəmə tərəfindən daim diqqətdə saxlanılır.

Ali Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, fevralın 17-də Ali Məhkəmənin sədri Ramiz Rzayev Şirvan şəhərində Şirvan, Hacıqabul və Salyan rayonlarından, eləcə də digər bölgələrdən olan vətəndaşları qəbul edib. Qəbul zamanı Ali Məhkəmənin sədri qəbulda iştirak edən şəhid ailələrinin və Vətən müharibəsi iştirakçılarının qayğıları ilə maraqlanıb. Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilərək məhkəmələrin fəaliyyəti barədə onların müraciətlərinə baxılıb, qaldırılan məsələlərin bəzilərinin yerində həlli ilə bağlı tədbirlər görülüb. Digərləri isə araşdırılması və onların qanunauyğun şəkildə həll edilməsi üçün Ali Məhkəmə Aparatının qəbulda iştirak edən məsul işçilərinə müvafiq tapşırıqlar verilib.


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatında əmək haqlarının, dövlət icbari şəxsi sığortası üzrə sığorta ödənişlərinin və digər struktur bölmələrində əmək haqlarının, əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətləri"nin satın alınması məqsədilə 02.12.2022-ci il tarixdə elan edilmiş açıq tenderin nəticələrinə əsasən, "Azərbaycan Beynəlxalq Bankı" ASC qalib müəyyən olunmuşdur. Qaliblə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatında və digər struktur bölmələrində əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətləri"nin satın alınması məqsədilə 02.12.2022-ci il tarixdə elan edilmiş açıq tenderin nəticələrinə əsasən, "Kapital Bank" ASC qalib müəyyən olunmuşdur. Qaliblə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmiləri üçün müxtəlif növ göstəricilərin (datçiklərin) satın alınması məqsədi ilə ***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 27 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi 2, AZ1003**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1164**

***Tender komissiyası***







Azercell

## korporativ abunəçilərinin nəzərinə!

Təqdim edilən xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi və müştərilərə təklif olunan tariflərin optimallaşdırılması məqsədilə 24.02.2023-cü il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində korporativ abunəçilərə təqdim edilən "Optimist Şəbəkə", "Minimalist", "Biznes 55" paketləri və "Korporativ 5000", "Zero VAT Korporativ 5000", "Sizin Tarif 3", "Zero VAT Sizin Tarif 3", "Sizin Tarif 3,5", "Zero VAT Sizin Tarif 3,5", "Korporativ Platinium Extra", "Zero VAT Korporativ Platinium Extra", "Region 2", "Data" və "Zero VAT Data" tarif paketləri ləğv ediləcək. Qeyd olunan tarixdən etibarən növbəti faktura (müvafiq olaraq hər ayın 5-i və ya 25-i) dövründədək digər tarif paketlərinə keçid etməyən abunəçilərin nömrələrində mövcud paketləri avtomatik olaraq (tarif dəyişikliyinə görə xidmət haqqı tutulmadan) aşağıda sadalanan ardıcıllıq ilə daha əlverişli tarif paketlərinə abunəlik ilə əvəz ediləcək:

| № | Ləğv olunan Tarif Paketlərinin adı | Avtomatik qaydada əvəz ediləcək Tarif Paketlərinin adı |
|---|---|---|
| 1. | "Optimist Şəbəkə" | "Biznesim 5 GB" |
| 2. | "Minimalist" | "Biznesim 3 GB" |
| 3. | "Biznes 55" | "Biznesim 50 GB" |
| 4. | "Korporativ 5000" | "Biznesim 2" |
| 5. | "Sizin Tarif 3" | "Biznesim 2" |
| 6. | "Sizin Tarif 3,5" | "Biznesim 2" |
| 7. | "Korporativ Platinium Extra" | "Biznesim 2" |
| 8. | "Zero VAT Korporativ 5000" | "Zero VAT Biznesim 2" |
| 9. | "Zero VAT Sizin Tarif 3" | "Zero VAT Biznesim 2" |
| 10. | "Zero VAT Sizin Tarif 3,5" | "Zero VAT Biznesim 2" |
| 11. | "Zero VAT Korporativ Platinium Extra" | "Zero VAT Biznesim 2" |
| 12. | "Region 2" | "Biznesim Region" |
| 13. | "Data" | "Biznesim Broadband" |
| 14. | "Zero VAT Data" | "Zero VAT Biznesim Broadband" |

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi - SimSim abunəçiləri (012)4904949/2002, Fakturalı xətt abunəçiləri (012)4905252/6565, e-poçt: customercare@azercell.com; musterixidmetleri@azercell.com, o cümlədən onlayn müştəri xidmətləri) müraciət etməklə əldə etmək imkanına malikdirlər. Korporativ abunəçilər xüsusi Müştəri Xidmətlərinə ((012)4904940 - şəhər telefonundan, 6050 - mobil telefondan (1 zəng - 0,1 AZN); bazar ertəsi - cümə, 09:00 - 18:00; şənbə, 09:00 - 16:00; e-poçt: destek@azercell.com) müraciət edərək mövcud tariflər, kampaniyalar və xidmətlər haqda məlumat öyrənə, müxtəlif əməliyyatlar həyata keçirə və texniki dəstək ala bilərlər.

*Təkrar*

## "Azərenerji" ASC 330/110/10 kV-luq "Ələt AİZ" Yarımstansiyasının tikintisi, "Qobu" ES-də 330 kV-luq APQ-də və "Cənub" ES-də 330 kV-luq QPQ-də genişlənmə tədbirlərinin icrası, yeni xətt üçün əlavə 330 kV-luq yuvaların quraşdırılması işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 500 (iki min beş yüz) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs: Həmid İsazadə, telefon: 490-09-27, 598-05-56).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi, zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 80 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə analoji işlərə uyğun elektrik stansiyaların, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də, yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq **30 000 000 (otuz milyon manat)** AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *iddiaçı şirkətin analoji işlərə uyğun elektrik stansiyaların, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işləri üzrə ən azı 3 oxşar layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədləri;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 mart 2023-cü il saat 15:00-a** qədər, bank təminatını, tender təklifini isə **29 mart 2023-cü il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına, "Azərenerji" ASC-nin Ümumi şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **30 mart 2023-cü il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) ***açılacaqdır.***

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların elektron poçt ünvanlarına müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri onlayn qaydada iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## "Azərenerji" ASC 330 kV-luq "Qobu Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs: Azad Məmmədov, telefon: 598-26-96, 490-09-27).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi, zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 80 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə analoji işlərə uyğun elektrik stansiyaların, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də, yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq **30 000 000 (otuz milyon manat)** AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *iddiaçı şirkətin analoji işlərə uyğun elektrik stansiyaların, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işləri üzrə ən azı 3 oxşar layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 mart 2023-cü il saat 15:00-a** qədər, bank təminatını, tender təklifini isə **29 mart 2023-cü il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10, ünvanına, "Azərenerji" ASC-nin Ümumi şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **30 mart 2023-cü il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) ***açılacaqdır.***

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların elektron poçt ünvanlarına müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri onlayn qaydada iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## "Azərenerji" ASC 330 kV-luq "Cənub Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi, zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 80 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə analoji işlərə uyğun elektrik stansiyaların, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də, yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq **30 000 000 (otuz milyon manat)** AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *iddiaçı şirkətin analoji işlərə uyğun elektrik stansiyaların, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işləri üzrə ən azı 3 oxşar layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 mart 2023-cü il saat 15:00-a** qədər, bank təminatını, tender təklifini isə **29 mart 2023-cü il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına, "Azərenerji" ASC-nin Ümumi şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **30 mart 2023-cü il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) ***açılacaqdır.***

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların elektron poçt ünvanlarına müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri onlayn qaydada iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

Azercell

## abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 21.02.2023-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP İdarə Heyətinin üzvü, Xalq artisti Samir Cəfərova atası

**QADİR CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Köçərli Həsənova bacısı

**TURA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Köçərli Həsənova bacısı

**TURA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazir müavini Vüsal Nəsirliyə atası

**ZAKİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirliyə atası

**ZAKİR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı

**FƏXRƏDDİN QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5077
Sifariş 407

Qiyməti 40 qəpik